QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 135 (5366) 1 **avqust** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Dövlətin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır

Səh 5




"Azərbaycan ilə ABŞ arasında siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində ikitərəfli münasibətlər çox yaxşı səviyyədədir" 2



Leyla Əliyeva: "İnsanların sevgisini qazanmaq çox böyük xoşbəxtlikdir" 3



Novruz Məmmədov: "Haaretz" qəzetinin yalan və böhtandan ibarət yazısı Azərbaycan-İsrail münasibətlərinin ruhuna ziddir 3



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyənin İğdır Vilayətinin valisi ilə görüşüb 4



Bakıda "4 isti gün": "Jara-2017" Qriqori Lepsin yaradıcılıq gecəsi ilə yekunlaşıb 6



Sergey Markov: "Ermənistan iki cəbhəyə oynamağa çalışır" 7



9 Dima Bilan: "Jara" dünya miqyasında parlaq musiqi hadisəsidir



12 Ermənistan: şəxsiyyətin ikiyə bölünməsi-dissosiativ pozulma



16 Azərbaycan cüdoçusu Almaniyada keçirilən yarışda çempion olub



# "Azərbaycan ilə ABŞ arasında siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində ikitərəfli münasibətlər çox yaxşı səviyyədədir"

*Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın Arizona ştatının Nümayəndələr Palatasının sədrini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də ABŞ-ın Arizona ştatının Nümayəndələr Palatasının sədri Cavan Mesnardı qəbul edib.***

AZƏRTAC xəbər verir ki, ABŞ-ın Arizona ştatının Nümayəndələr Palatasının sədri Cavan Mesnard artıq bir neçə gündür Azərbaycana gəldiyini, Bakı və regionlarımız ilə tanış olduğunu qeyd edərək dedi: "Sizin ecazkar ölkənizdə olmağımdan çox məmnunam. Azərbaycan çox gözəl ölkədir. Mən ilk dəfədir ki, buradayam. İnsanlar hər yerdə dostluq və qonaqpərvərlik nümayiş etdirirlər. Mən ABŞ-a geri döndükdə bu təəssüratlarımı hamı ilə bölüşəcəyəm". Cavan Mesnard Arizona ştatının qanunvericilərinin əksəriyyətinin Azərbaycan haqqında çox eşitdiyini bildirdi.

Prezident İlham Əliyev qonağın Bakıda və regionlarda olmasının ölkəmiz haqqında daha geniş informasiya əldə edilməsi işinə kömək edəcəyini vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, ABŞ-dan Azərbaycana daha çox səfərlərin həyata keçirilməsi insanlar arasında təmasların genişləndirilməsi və xalqlarımızın bir-birini daha yaxından tanıması baxımından önəmlidir və bu, həm də ölkələrimiz arasında əməkdaşlığın möhkəmlənməsi işinə xidmət edəcək. Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində ikitərəfli münasibətlərin və eləcə də ölkəmizin ABŞ-ın ayrı-ayrı ştatları ilə əməkdaşlığının çox yaxşı səviyyədə olduğunu dedi. Dövlətimizin başçısı, eyni zamanda, ABŞ-ın bəzi regionlarında ictimaiyyətin ölkəmiz haqqında bir o qədər də dolğun məlumata malik olmadığını vurğulayaraq, Azərbaycan haqqında həqiqətlərin daha çox yayılmasının önəmini qeyd etdi.



# Azərbaycanla Burkina Faso arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanlar var

*Prezident İlham Əliyev Burkina Fasonun Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də Burkina Faso dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amadou Dikonun etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi. Amadou Diko etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.***

Amadou Diko Burkina Faso dövlətinin Azərbaycanda səfiri kimi fəaliyyətə başlamasından sevinc hissi keçirdiyini bildirərək dedi: "Sizin kimi şəxsiyyətin yanında ölkəmi təmsil etmək üçün gözəl Azərbaycana səfər etməkdən şərəf duyuram".

Prezident İlham Əliyev Azərbaycanla Burkina Faso arasında siyasi, iqtisadi, ticarət, sərmayə qoyuluşu və eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı maraq doğuran məsələlərlə bağlı əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edərək, bu baxımdan ölkələrimizin və xalqlarımızın bir-birini daha yaxından tanımasının vacib olduğunu dedi. Dövlətimizin başçısı səfir Amadou Dikonun bu istiqamətdə səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev İsveçrə Konfederasiyasının Prezidenti Doris Loytharda təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli xanım Prezident, İsveçrə Konfederasiyasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan-İsveçrə əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da dinamik şəkildə inkişaf edəcək və genişlənəcəkdir. Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

***

Prezident İlham Əliyev Xızrı Şıxsəidovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, həmçinin Azərbaycan və Dağıstan xalqları arasında dostluq, əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə Xızrı İsayeviç Şıxsəidov "Dostluq" ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının Əsasnaməsi"nin təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın kino xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Çingiz Qənizadənin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Çingiz Aşralı oğlu Qənizadə "Şöhrət" ordeni ilə təltif edilsin.

***

Azərbaycan Prezidenti İlham Əliyev Hindistan Prezidenti Ram Nat Kovində təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hindistan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. İnanıram ki, Azərbaycan ilə Hindistan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin davamlı inkişafı və daha da möhkəmləndirilməsi yolunda birgə səylər göstərəcəyik. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Hindistan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm".



## Leyla Əliyeva: "İnsanların sevgisini qazanmaq çox böyük xoşbəxtlikdir"

*"Jara" festivalının dördüncü günündə qırmızı xalı üzərindən keçid mərasimi zamanı aparıcılar musiqi bayramının fəxri qonaqları sırasında olan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanı mikrofon önünə dəvət ediblər. AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva aparıcıların bir neçə sualını cavablandırıb.*

**Aparıcı: Hamı, Azərbaycanın qonaqları, Bakının qonaqları bugünkü konsertin nə vaxt başlayacağını gözləyir. Baxın görün, hamı sizi necə sevir, sizi həmişə belə alqışlayırlar. Hamı sizinlə söhbət etmək, şəkil çəkdirmək istəyir. Deyin görüm, siz belə böyük sevginin öhdəsindən necə gəlirsiniz?**

Leyla Əliyeva: Bu sözlərə görə sağ olun. Bu, çox böyük xoşbəxtlikdir.

**Aparıcı: Sizin heyrətamiz şeirləriniz var. Mən sizin instaqram səhifənizə baxdım, çox şey oxudum. Sizi nə ruhlandırır?**

Leyla Əliyeva: Həyat, məhəbbət, gözəllik - hər şey.

**Aparıcı: Ona görə belə işıq saçırsınız? Gözəl insan hər cəhətdən gözəldir. Çox sağ olun.**

Leyla Əliyeva: Sağ olun. Hamınıza gözəl axşam arzu edirəm.







## Novruz Məmmədov: "Haaretz" qəzetinin yalan və böhtandan ibarət yazısı Azərbaycan-İsrail münasibətlərinin ruhuna ziddir



İyulun 30-da İsrailin "Haaretz" qəzeti Azərbaycanla bağlı yalan və böhtandan ibarət növbəti yazı dərc edib. Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi Novruz Məmmədov AZƏRTAC-a bu yazı ilə bağlı münasibət bildirib. Prezidentin köməkçisi deyib:

- Təəssüf ki, məsuliyyət hissindən məhrum bəzi mətbuat orqanlarının təmsilçiləri vaxtaşırı yalan və böhtan xarakterli məlumatları yaymağı özlərinə peşə hesab edirlər. İndiyə qədər İsrailin "Haaretz" qəzetində dəfələrlə Azərbaycan dövləti, onun xarici və daxili siyasəti ilə bağlı bəzi yalan məlumatlar dərc olunub. Lakin növbəti yalan və böhtan birbaşa Prezidentin ailəsinə qarşı yönəldiyindən ona münasibət bildirməyə ehtiyac var.

Belə ki, iyul ayının 30-da İsrailin "Haaretz" qəzetində Prezidentin ailəsi barədə bütövlükdə yalan məlumat, kiçik olsa da məkrli yazı dərc olunub. Əsas narahatlıq doğuran məqam isə bu məlumatda İsrailin turizm naziri Yarev Levinə istinad edilməsidir. Yazıda göstərilir ki, guya son bir neçə ay ərzində Prezidentin ailəsi İsraildə əmlak almaqla, bu ölkəyə vəsait qoymaqla məşğul olub. Eyni zamanda, guya Prezidentin kiçik oğlu (fikir verin) bu aylarda İsraildə olub. Amma həqiqət budur ki, Prezidentin oğlu yalnız göstərilən aylarda yox, ümumiyyətlə, İsrailə səfər etməyib. Bu informasiyalar yalan və böhtandan başqa bir şey deyil və onların reallıqla heç bir əlaqəsi yoxdur. İsrail mətbuatında belə yazıların dərci təəssüf doğurur və eyni zamanda, ölkələrimiz arasındakı münasibətlərin ruhuna da ziddir. "Haaretz" qəzetinin jurnalisti məkrli niyyətini həyata keçirmək üçün İsrailin turizm naziri Yarev Levinə istinad edir. Hesab edirəm ki, yalan və böhtan məlumatla bağlı İsrail səfirliyi özünün və nazir Yarev Levinin mövqeyini bildirməlidir.

## Fəttah Heydərov: "Azərbaycan mədəniyyət və incəsənət sahəsində də dünyaya örnək ola bilər"



Qəbələ Beynəlxalq Musiqi Festivalı son zamanlar Azərbaycanda ənənəvi keçirilən mühüm tədbirlərdən birinə çevrilib. Bu festival Heydər Əliyev Fondunun çox uğurlu layihələrindən biridir. Çox şadam ki, dünyada kifayət qədər tanınan və sevilən, canlı ifalarının dinlənilməsi hər vaxt mümkün olmayan korifey sənətkarlar Qəbələ festivalının iştirakçısı olur, gözəl konsertləri ilə yerli və xarici tamaşaçıların zövqünü oxşayırlar. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov deyib.

Milli Məclisin deputatı bildirib ki, Qəbələ festivalı xarici qonaqlara Azərbaycan bəstəkarlarının əsərlərini təqdim etməklə yanaşı, yerli musiqisevərlərə dünyanın klassik sənət inciləri ilə yaxından tanış olmaq imkanı yaradır: "Müxtəlif ölkələrdən görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər və dirijorların iştirak etdiyi IX Qəbələ Beynəlxalq Musiqi Festivalında səsləndirilən Azərbaycan və Avropa bəstəkarlarının əsərləri böyük tamaşaçı marağına səbəb olur. Festival günlərində Qəbələdə böyük izdiham yaşanır, xüsusi ab-hava hökm sürür".

Festivalda musiqiçilərin gözəl ifalarından və yaddaqalan çıxışlarından danışan Fəttah Heydərov bu tədbirin gözlənildiyi kimi böyük marağa səbəb olduğunu bildirib. "Buraya gələn xarici qonaqlar ölkəmizin inkişafı, xalqımızın adət-ənənələri və mədəniyyəti, milli musiqimiz, muğam və bəstəkar əsərləri ilə yaxından tanış olurlar. Yerli və xarici musiqiçilər və tamaşaçılar bir-biri ilə ünsiyyət qurur, xalqlar arasında mədəni əlaqələrə töhfə verən qarşılıqlı təcrübə və yaradıcılıq söhbətləri aparırlar. Festival onu göstərir ki, Azərbaycan hər sahədə olduğu kimi, mədəniyyət və incəsənət sahəsində də dünyaya örnək ola bilər. İstedadlı xalqımız bu dəfə də nəyə qadir olduğunu yüksək səviyyədə sübut edir və ölkəmiz belə yüksək səviyyəli tədbirlərin keçirilməsində böyük təcrübəsi və ənənəsi olan dövlətlərdən heç də geridə qalmadığını göstərir. Azərbaycanlılar həmişə sülh, tərəqqi istəyən bir xalq olub". Milli Məclisin deputatı Qəbələdə beynəlxalq musiqi festivalının keçirilməsinin təşəbbüskarı olan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya mədəniyyətimizə, milli musiqimizin inkişafına, bu sahədə ölkəmizin dünyada tanınması işinə daim qayğı göstərdiyi üçün minnətdarlıq edib. "Sizi əmin edirəm ki, Heydər Əliyev Fondunun uğurlu layihələrindən olan bu beynəlxalq musiqi festivalı hələ uzun illər keçiriləcək, Qəbələ dünyanın mədəniyyət mərkəzinə çevriləcək və burada bəşəriyyətin ən gözəl klassik əsərləri korifey sənətkarların canlı ifasında dinləniləcək".

## Azərbaycan və İsrail arasında müdafiə sənayesi sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb

İyulun 31-də Müdafiə Sənayesi Nazirliyində (MSN) Azərbaycanda səfərdə olan İsrailin Müdafiə Nazirliyinin müdafiə ixracı və müdafiə əməkdaşlığı üzrə şöbəsinin (SİBAT) müdiri Mişel Ben Baruhun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. MSN-dən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinə nazirliyin fəaliyyəti barədə məlumat verilib. Görüşdə Azərbaycan və İsrail arasında müdafiə sənayesi sahəsində əməkdaşlığa və qarşılıqlı maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparılıb. İsrailin Azərbaycandakı səfiri Dan Stav da görüşdə iştirak edib.

# Jurnalistlər Prezidentə minnətdarlıq edirlər: Siz mediaya dövlət dəstəyi siyasətini ən yüksək zirvəyə çatdırmısınız



***Milli Mətbuat Günü münasibətilə jurnalistlər üçün tikilən ikinci yaşayış binasının istifadəyə verilməsi böyük razılıq və sevinc hissləri doğurub. Prezident İlham Əliyevin ünvanına jurnalist kollektivlərindən, yeni binada mənzillə təmin olunan KİV işçilərindən təşəkkür məktubları gəlməkdə davam edir.***

AZƏRTAC Prezidentin rəsmi saytına istinadla xəbər verir ki, məktub müəllifləri bu dəyərli hədiyyəyə görə minnətdarlıqlarını bildirir, jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımları, mətbuata dövlət dəstəyini yüksək qiymətləndirirlər.

Yeni binada mənzil sahibi olan media nümayəndələri arasında "Xəzər" Televiziyasının da altı əməkdaşı var. "Xəzər TV" MMC-nin prezidenti Şamxal Həsənli bununla bağlı Prezidentə ünvanlandığı minnətdarlıq məktubunda yazır: "Möhtərəm Prezident, Siz bu nəcib addımınızla, jurnalistlər üçün tikilmiş birinci binanı da nəzərə alsaq, təxminən 400 media işçisini ev sahibi etdiniz. Bununla kiyafətlənməyərək, 255 mənzilli daha bir binanın da təməlini atdınız. Məhz Sizin təşəbbüsünüz və xoş məramınız sayəsində boş bir ərazi artıq "Jurnalistlər şəhərciyi"nə çevrilir. Siz dünyada bənzəri olmayan bu layihə ilə yüzlərlə jurnalistə və onların ailələrinə böyük sevinc bəxş etdiniz".

Məktubda "Xəzər" Televiziyasının çoxsaylı kollektivi adından dövlətimizin başçısına minnətdarlıq duyğuları ifadə olunur. Qeyd edilir ki, telekanalın yaradıcı heyəti milli maraqların və dövlətçilik maraqlarının qorunmasında bundan sonra da səylərini əsirgəməyəcək.

Prezidentə minnətdarlıq məktubu ünvanlayan jurnalist kollektivləri arasında "İki sahil" qəzeti də var. Qəzetin baş redaktoru Vüqar Rəhimzadə dövlətimizin başçısını "Jurnalistlərin dostu" mükafatına layiq görülməsi münasibətilə təbrik edir, Azərbaycanın daha firavan gələcəyi naminə fəaliyyətində yeni və möhtəşəm nailiyyətlər arzulayır. Məktubda deyilir: "Siz jurnalistlərin dostu və himayədarısınız. Biz jurnalistlər bu diqqət və qayğını gündəlik həyatımızda, yaradıcılıq fəaliyyətimizdə daim hiss edirik. Təbii ki, bu xoş ənənənin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub və hazırda Sizin tərəfinizdən uğurla davam etdirilir, zənginləşdirilir. Sizin Sərəncamınızla jurnalistlər üçün tikilən növbəti yaşayış binasında 255 həmkarımızın mənzillə təmin edilməsinin doğurduğu sevinc hissləri ömür boyu unudulmayacaq".

V.Rəhimzadə məktubunda daha sonra Prezidentin jurnalistləri fəxri adlarla təltif etməsini, KİV-in inkişafına göstərdiyi dəstəyi vurğulayaraq yazır ki, 26 illik fəaliyyətində dövlətçilik və milli maraqları rəhbər tutan "İki sahil" qəzeti bundan sonra da bu müqəddəs amallara sadiq qalacaq, dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın daha parlaq gələcəyinə hesablanmış çoxşaxəli siyasətə öz töhfəsini verməyə çalışacaq.

Daha bir məktuba nəzər salaq: "Əməyimi yüksək dəyərləndirdiyinizə - jurnalistlər üçün tikilmiş binada mənə mənzil verdiyinizə görə Sizə səmimi qəlbdən minnətdarlığımı bildirirəm. Mən bunu 70 illik yubileyimə çox qiymətli hədiyyə hesab edirəm". Bu sətirlər Fərid Xayrulinin məktubundan götürülüb. Veteran jurnalist ona həyatının ən böyük sevincini yaşatdığına görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ənənəyə çevrilmiş mediaya dövlət dəstəyi siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə özünün ən yüksək zirvəsinə çatdığını vurğulayan "Kaspi" qəzetinin baş redaktoru İlham Quluyev yazır: "Son illər dünyada yaşanan qlobal iqtisadi böhran, neftin qiymətinin ucuzlaşması fonunda Azərbaycan dövləti heç bir sosial layihəni, o cümlədən mediaya dövlət dəstəyini dayandırmayıb, əksinə, daha da artırıb. Milli Mətbuat Günü dövlət səviyyəsində qeyd olunur, redaksiyalara yardımlar ayrılır, yüzlərlə jurnalist dövlət mükafatları və fəxri adlarla təltif edilir".

Məktubda qeyd olunur ki, bu il daha 255 jurnalistin mənzillə təmin edilməsi onlara həyatlarının ən xoşbəxt günlərini yaşadıb. Bu jurnalistlərin arasında "Kaspi" qəzetinin də üç əməkdaşı var. Qəzetin baş redaktoru bu dəyərli hədiyyəyə görə Prezidentə kollektivin dərin minnətdarlığını çatdırır.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyənin İqdır Vilayətinin valisi ilə görüşüb

İyulun 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası İqdır Vilayətinin yeni valisi Ənvər Ünlü ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qonağı salamlayan Ali Məclisin Sədri onu İqdır vilayətinə vali təyin olunması münasibətilə təbrik edib. Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələrin



tarixi inkişaf yoluna nəzər salıb, Naxçıvanın və İqdırın ölkələrimiz üçün əhəmiyyətini vurğulayıb. Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialı və mövcud inkişafı haqqında məlumat verən Ali Məclisin Sədri iqtisadi-ticarət, elm, təhsil, səhiyyə, ordu quruculuğu və turizm sahəsindəki ikitərəfli əlaqələrdən danışıb, azad ticarətin təşkilinin münasibətlərin inkişafına töhfə verəcəyini bildirib.

İqdır Vilayətinin valisi Ənvər Ünlü Naxçıvanda olmaqdan məmnunluğunu bildirib və göstərilən xoş münasibətə görə minnətdarlıq edib. Ölkələrimiz arasındakı münasibətlərin əməkdaşlığın genişləndirilməsi üçün hərtərəfli əsas yaratdığını vurğulayan vali fəaliyyəti dövründə Naxçıvan Muxtar Respublikası ilə qarşılıqlı əlaqələrin inkişafına çalışacağını bildirib.

Azərbaycan Respublikasının Qarsdakı baş konsulu Nuru Quliyev və Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Nihat Ərşən görüşdə iştirak ediblər.

# Multikulturalizmin Azərbaycan modeli dünyada ölkəmiz haqqında xoş təəssüratlar yaradır



Bu gün multikulturalizmin Azərbaycan modeli bütün dünya ölkələri üçün örnəkdir. Bu model dünyada Azərbaycan haqqında xoş təəssüratlar yaradır, ölkəmizə qarşı son dərəcə ciddi münasibət formalaşdırır. AZƏRTAC xəbər verir ki, bu fikri Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullayev iyulun 29-da jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, hazırda dünyanın müxtəlif universitetlərində Azərbaycan multikulturalizmi fənni tədris olunur. Bu dərslərdən sonra biz Azərbaycan multikulturalizmini öyrənən gəncləri ölkəmizə dəvət edirik. Onlar da yay və qış multikulturalizm məktəblərində iştirak edirlər. Bu da dövlətimizin başçısının tövsiyəsi ilə həyata keçirilir. Kamal Abdullayev vurğulayıb ki, dünyada ölkəmizə olan münasibətin tənzimlənməsində Azərbaycanın Gənc Dostları Klubunun özünəməxsus rolu var.

Akademik diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin tövsiyəsi, BBMM, UNESCO, "Erasmus+", "ALADDİN layihəsi" və Azərbaycanın Gənc Dostları Klubunun (AGDK) birgə təşkilatçılığı ilə keçirilən "Mədəniyyətlərarası dialoq dini və mədəni müxtəliflik kontekstində - Azərbaycanda dinlərarası harmoniya" adlı V Beynəlxalq multikulturalizm yay məktəbində 26 ölkəni 60-a yaxın tələbə təmsil edir. Ölkəmiz ilə yaxından tanış olan yay məktəbinin iştirakçıları Azərbaycanın Gənc Dostları Klubunun üzvləri olurlar. Bu klub hazırda dünyada bir sıra siyasi-ictimai proseslərdə fəal iştirak edir. Biz onlara Azərbaycan həqiqətlərini çatdırırıq. Onlar da öz ölkələrində bu həqiqətləri təbliğ edirlər. "Əminəm ki, klubun üzvləri Azərbaycanın dostu kimi bizimlə ünsiyyətlərini davam etdirəcəklər. Bu gənclərdən Azərbaycanı sevənlər ordusu yaranacaq", - deyə Kamal Abdullayev qeyd edib.

# Dövlətin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır

*Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin Azərbaycanda rəhbərliyi ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsi və sosial infrastrukturun ən müasir standartlara uyğun yenidən qurulması istiqamətində davamlı olaraq məqsədyönlü siyasət həyata keçirilir*

***Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdışından sonra, ilk növbədə, ölkədə siyasi xaosa son qoyaraq, dövlət idarəetməsini yenidən təşkil etdi. Bununla bərabər, ölkəni iqtisadi böhrandan çıxarmaq üçün konsepsiya hazırlandı. Bu konsepsiyanın əsasını yeni neft strategiyası təşkil etdi. Aparılan uğurlu siyasət sayəsində 1994-cü il sentyabrın 20-də dünyanın ən qüdrətli transmilli neft şirkətləri ilə "Əsrin Müqaviləsi" imzalandı. Ölkəmiz 1997-ci ildə ilk dəfə bu müqaviləyə əsasən, hasil edilən neftdən pay almağa başladı. Beləliklə, Azərbaycanın yeni inkişaf dövrü başlandı.***



Görülən tədbirlər öz müsbət nəticələrini verir. Ölkədə sosial məsələlərin həlli ilə bağlı çoxsaylı dövlət proqramları və qlobal layihələr gerçəkləşdirilib. Regionların sosial-iqtisadi inkişafına yönəldilmiş üç Dövlət Proqramı qəbul olunub. Artıq üçüncü proqramın dördüncü ili yaşanır. 2004-cü ildən başlayaraq həyata keçirilməyə başlayan bu proqramlarda, qarşıya qoyulan vəzifələrin uğurlu həlli nəticəsində, ölkə iqtisadiyyatı xeyli güclənib, əhalinin sosial rifahı, güzəranı ildən-ilə yaxşılaşır. Bütün bunlar göstərir ki, dövlətin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Ona görə də, sosial məsələlərin həlli daim diqqət mərkəzindədir.





Bu ilin əvvəlindən 122 min yeni iş yerinin açılması və onlardan 101 mininin daimi olması şərhə ehtiyacı olmayan faktdır. Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı bu barədə demişdir: "Bu il 122 min yeni iş yeri açılmışdır ki, onlardan 101 mini daimi iş yeridir. Onu da qeyd etməliyəm ki, 24 min iş yeri bağlandı. Bunun da həm obyektiv, həm də subyektiv səbəbləri var, bu, əslində, daimi prosesdir. Ancaq biz rəqəmlərə baxanda, - 122 min iş yeri açılıb, 24 min iş yeri isə bağlanıb, - əlbəttə, görürük ki, yenə də iş yerlərinin açılması prosesi uğurla davam edir. Ona görə də, bizdə işsizlik aşağı səviyyədədir".

Əhalinin sosial vəziyyətini özündə əks etdirən başlıca amillərdən biri əldə edilən gəlirdir. Cari ilin birinci yarısında ölkə əhalisinin nominal gəlirləri ötən ilin eyni dövrünə nisbətən 7,3 faiz artıb. Bu dövrdə əhalinin hər nəfərinə düşən gəlir orta hesabla 2422,9 manat təşkil edib. Əldə edilən gəlirin 86,3 faizi son istehlak xərclərinə, 8,5 faizi vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının, 1,9 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilib, 3,3 faizi yığıma yönəldilib. Beləliklə, bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 21526,8 milyon manat pul qalır. Cari ilin yanvar-may aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 6,3 faiz artıb. Bu dövrdə özəl müəssisələrdə çalışan işçilərin əməkhaqları dövlət sektorunda çalışanlardan yüksək olub. Ən yüksək əməkhaqqı mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elm və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də, tikinti sahələrində orta nominal əməkhaqqı isə ölkə üzrə orta göstəricidən yüksəkdir.

Bütün bunların fonunda Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında əhalinin sosial problemlərinin həllinin vacibliyini vurğulayaraq deyib: "Bu il infrastruktur layihələrinin icrası davam etdirilmişdir. Qazlaşdırma səviyyəsi artıq 93 faizə çatmışdır. Biz qarşıya 95 faiz hədəfi qoymuşduq. Ölkəmizin relyefini nəzərə alsaq, hesab edirəm ki, bu, yaxşı rəqəmdir. Artıq biz bu hədəfə çatırıq. Digər infrastruktur layihələri də icra edilir, elektrik təsərrüfatı yenilənir. Kənd yolları layihələri icra edilir. Şərti olaraq biz bu layihəni "40 kənd yolu" layihəsi adlandırdıq, ancaq hər bir layihənin əhatə dairəsi daha genişdir. Yəni 40 deyəndə, əslində, bu, 200, bəlkə də daha çox kəndi əhatə edir. Çünki hər bir layihə 4-5 kəndi əhatə edir və bu, çox gözəl nəticə verir, bölgələrdə də vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İçməli su layihələri icra edilir. Kifayət qədər vəsait var və gələn il də bu proses davam etdiriləcək. Artıq bir çox şəhərlərimizdə içməli su məsələsi həll olunub".

Bir sözlə, ölkədə vətəndaşa qayğı kompleks şəkildə, hərtərəfli formada həyata keçirilir. Son illərdə maaşların, pensiyaların, digər sosial ödənişlərin dəfələrlə artırılması, aztəminatlı ailələrə göstərilən yardımlar və s. bunun daha bir təsdiqidir. Sadalananlar, bir daha göstərir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

***"Səs" Analitik Qrupu***

# İlin birinci yarısında istehsalı mənimsənilmiş müdafiə təyinatlı məmulatların çeşid sayı 1200-ə çatdırılıb

*Hazırda 10-dan çox ölkəyə Azərbaycanın istehsalı olan müdafiə təyinatlı məmulatlar ixrac olunur*




***Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 2017-ci ilin birinci yarısının yekunlarına dair səyyar kollegiya iclası keçirilib. MSN-dən AZƏRTAC-a bildiriblər ki, nazir Yavər Camalovun sədrliyi ilə keçirilən iclasda nazirliyin birlik və müəssisələrinin istehsal, maliyyə-təsərrüfat fəaliyyətlərinin yekunları və qarşıda duran məsələlər geniş müzakirə edilib.***

Kollegiyanın sədri Yavər Camalov Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uzaqgörən siyasət nəticəsində həyata keçirilən qlobal islahatların yekunu olaraq iqtisadiyyatın bütün sahələrində uğurlu nəticələr əldə edildiyini bildirib. Qeyd edilib ki, son illər yürüdülən iqtisadi strategiya əsasında həyata keçirilən islahatlar ölkə iqtisadiyyatının şaxələnməsində, xüsusilə, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafında öz müsbət təsirini göstərib. Aparılan islahatlar nəticəsində böyük uğurlar əldə edilən inkişaf sahələrindən biri də qısa zamanda özünün inkişaf tempi ilə illərin təcrübəsini qazanmış istehsal sahələrindən heç də geri qalmadığını göstərən və bugünkü göstəriciləri ilə sanki nümunəyə çevrilən müdafiə sənayesi sahəsidir.

Yavər Camalov cari ilin iyununda, Silahlı Qüvvələr günü ərəfəsində Müdafiə Sənayesi Nazirliyinin Şirvan şəhərində yerləşən iki yeni istehsal zavodunun açılış mərasimində iştirak edən Prezident İlham Əliyevin nazirliyin yaradılması və fəaliyyəti ilə bağlı söylədiyi "Müdafiə Sənayesi Nazirliyinin yaradılmasının əsas məqsədi idxaldan asılılığı azaltmaq, yeni iş yerləri yaratmaq və Azərbaycan Silahlı Qüvvələrini müasir texnika və silahlarla təmin etmək idi. Bugünkü nailiyyətlər və reallıq onu göstərir ki, biz məqsədimizə çata bilmişik" fikirlərini bir daha diqqətə çatdırıb. Bildirib ki, dövlətimizin başçısı tərəfindən söylənilmiş bu dəyərli sözlər sahənin inkişafı ilə bağlı əldə olunan nailiyyətlərə verilən ən yüksək qiymətdir.

Nazir qeyd edib ki, hesabat dövründə nazirliyin müəssisələrində yaradılan və istehsal olunaraq Müdafiə Nazirliyi və digər güc strukturlarına təhvil verilmiş müdafiə təyinatlı məmulatların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,3 dəfə artıb. Birinci yarım ildə ümumi məhsul istehsalının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33,8 faiz artıb. İstehsalı mənimsənilmiş müdafiə təyinatlı məmulatların çeşid sayı 1200-ə çatdırılıb.

Hesabat dövründə nazirliyin müəssisələrində yaradılan və istehsal olunan "Tufan" minaya davamlı milli zirehli maşınının yaradılması və istehsalı üzrə işlər uğurla başa çatdırılıb, mütəxəssislərin iştirakı ilə təqdimatı keçirilib. Hazırda zirehli maşının seriyalı istehsalının həyata keçirilməsi üçün hazırlıq işləri aparılır. Eyni zamanda, nazirliyin müəssisələri tərəfindən iki məmulat üzrə - "Yalquzaq" snayper tüfənginin və F-1 tipli təlim əl qumbarasının istehsalat hazırlığı işləri tam başa çatdırılıb və seriyalı istehsalı təşkil olunub. Bunlarla yanaşı, cari ilin sonunadək xüsusi təyinatlı hücum pulemyotunun, avtomatik qumbaraatan kompleksinin, əl qumbaraatanının, avtomatların, müxtəlif tipli artilleriya atəş yığımlarının, VOQ-25P tipli atəş yığımının, artilleriya mərmiləri üçün partladıcıların və sair məmulatların silahlanmaya tövsiyə edilməsi nəzərdə tutulur.

Birinci yarım ildə istehsal olunan ümumi məhsulun 92 faizini müdafiə və xüsusi təyinatlı, 8 faizini isə mülki təyinatlı məmulatlar təşkil edir.

Azərbaycan Prezidentinin tapşırığına əsasən idxalın yerli istehsalla əvəzlənməsi məqsədilə respublikanın müvafiq qurumlarının sifarişləri əsasında illik istehsal gücü 3 min ədəd olan "Dalma" tipli dərinlik su nasoslarının müəssisədə istehsalı sahəsi yaradılıb və məmulatın istehsal edilərək sifarişçilərə təhvil verilməsinə başlanıb.

Hesabat dövründə nazirliyin qarşısında duran əsas prioritet məsələlərdən biri də dünyanın inkişaf etmiş ölkələrinin hərbi sənaye kompleksinə daxil olan şirkət və firmalarla mövcud əməkdaşlıq əlaqələrinin davam etdirilməsi və yeni əlaqələrin yaradılması olub. Bu istiqamətdə aparılan danışıqların nəticəsidir ki, bu gün MSN-in müəssisələrində yaradılan və istehsal olunan milli məhsullar beynəlxalq müdafiə sərgilərində nümayiş etdirilir. Belə sərgilərdən biri də cari ilin mayında Türkiyədə keçirilən "İDEF-2017" XIII Beynəlxalq müdafiə sənayesi sərgisi olub. Bu sərgidə Müdafiə Sənayesi Nazirliyi 260 adda müdafiə və xüsusi təyinatlı məmulatla təmsil olunub.

Ölkədə ixrac potensialının genişləndirilməsi və idxalın yerli istehsalla əvəzlənməsi ilə bağlı MSN-də də məqsədyönlü işlər aparılır. Bu gün nazirliyin müəssisələrində yaradılan və istehsal olunan xüsusi təyinatlı məhsullardan - döyüş sursatlarının, müasir atıcı və artilleriya silahlarının, pilotsuz uçuş aparatlarının, zirehli texnikaların və s. ixracı həyata keçirilib. Hazırda 10-dan çox ölkəyə Azərbaycanın istehsalı olan müdafiə təyinatlı məmulatlar ixrac olunur.

Müdafiə təyinatlı məmulatların yaradılması sahəsində nazirliyin elmi müəssisələrinin potensialından istifadə etməklə bir sıra elmi-tədqiqat və təcrübi-konstruktor işləri uğurla həyata keçirilir.

Nazirliyin Elmi-Tədqiqat İnstitutunda (ETİ) 2017-ci ildə yerinə yetirilməsi nəzərdə tutulan 31 mövzu üzrə elmi-tədqiqat və təcrübi-konstruktor işləri davam etdirilir. Eləcə də, Milli Aerokosmik Agentliyi tərəfindən (MAKA) cari ildə yerinə yetirilməsi nəzərdə tutulan 34 mövzu üzrə elmi-tədqiqat və təcrübi-konstruktor işləri aparılır.

MSN-in müəssisələrini yüksək ixtisaslı kadrlarla təmin etmək məqsədilə Azərbaycan Texniki Universitetində yaradılan "Xüsusi texnika və texnologiyalar" fakültəsini bu il bitirmiş məzunlardan 54-ü nazirliyin müəssisələrində işlə təmin edilib.

Kollegiya iclasında nazirliyin birlik və müəssisələrinin rəhbərlərinin hesabatları dinlənilib və müəssisələrin fəaliyyətləri müzakirə edilib. Nazir hesabat dövründə tabeli birlik və müəssisələr tərəfindən görülmüş işləri müsbət qiymətləndirdiyini bildirib.

Sonda Yavər Camalov ölkənin müdafiə sənayesinin Prezident İlham Əliyevin hər zaman diqqətində olduğunu bir daha xatırladıb və sahənin inkişafı ilə bağlı dövlətimizin başçısı tərəfindən verilən tapşırıqların yerinə yetirilməsi istiqamətində struktur bölmə, birlik və müəssisə rəhbərlərinə göstərişlər verib.

# Bakıda "4 isti gün": "Jara-2017" Qriqori Lepsin yaradıcılıq gecəsi ilə yekunlaşıb

*Musiqi gecəsinin fəxri qonaqları sırasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da olub*

***"Jara-2017" Beynəlxalq Musiqi Festivalının dördüncü - sonuncu günü Rusiyanın Əməkdar Artisti Qriqori Lepsin yaradıcılığına həsr edilib. AZƏRTAC xəbər verir ki, musiqi gecəsinin fəxri qonaqları sırasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da olub. Konsert zamanı Leyla Əliyeva "Jara"nın aparıcıları Yana Çurokovanın və Maksim Qalkinin suallarını cavablandırıb.***



Aparıcı Leyla Əliyevanın Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasında böyük işlər gördüyünü xatırladıb, bu festivalın əhəmiyyəti barədə onun fikirlərini soruşub.



Leyla Əliyeva deyib: "Bu, çox gözəl festivaldır. Burada o qədər sevgi, o qədər mehribanlıq və şənlik, o qədər gözəl artist və qonaq var ki... Çox böyük sevincdir. Əlbəttə ki, bütün gənclərimizə və qonaqlarımıza təşəkkür etmək istəyirəm. Çünki belə ab-havanı birlikdə yaradırıq. Hamıya təşəkkür edirəm. Qoy hər günümüz belə səadət dolu olsun.



Aparıcı: Düşünürəm ki, barəsində danışdığın bütün bu keyfiyyətlər həm də festivalın ideya ruhlandırıcısı kimi sizdən gəlir.

Leyla Əliyeva: Hamımızdan.

Aparıcı: Bəli, tamamilə doğrudur.



Təşəkkür edirəm.

Gecədə əvvəlcə səhnəni Lev Leşşenko və Jasmin bölüşüblər. Daha sonra Nikolay Baskov səhnəyə çıxaraq festival günlərində Alla Puqaçovanın və Sofiya Rotarunun yaradıcılıq gecələrinin keçirildiyini xatırladıb və onların repertuarlarından mahnılar səsləndirib.

Lolita və Nərgizin ifalarından sonra EMİN-in Aleksandr Marşalla, Sergey Lazarevin isə Dima Bilanla oxuduğu duetlər gecəyə xüsusi hərarət qatıb. "Jara"da iştirak etməkdən çox xoşbəxt olduğunu deyən Sergey Lazarev növbəti festivalın da möhtəşəm keçəcəyinə əminliyini bildirib. Sonra səhnəyə LOBODA çıxıb. O, Bakıda olmasından, "Jara"nın səhnəsində çıxış etməsindən böyük şərəf hissi duyduğunu bildirib. "Bu dörd gün çox möhtəşəm oldu. Qonaqpərvərliyə görə çox sağ olun", - deyə LOBODA qeyd edib. Sevilən mahnılarını səsləndirən Vaxtanq Kikabidze keçmiş Sovet İttifaqında Bakı kimi ikinci gözəl şəhərin olmadığını deyib.

Konsertdə Stas Mixaylov, IOWA və MBAND qrupları, Diana Arbenina, Soso Pavliaşvili, Slava da öz mahnılarını oxuyublar. Stas Mixaylov "Jara" festivalında görüşməyin bir ənənəyə çevriləcəyinə ümidvar olduğunu bildirib. Miri Yusiflə Röyanın duetindən sonra gecənin səbəbkarı Qriqori Leps tamaşaçıların sürəkli alqışları ilə səhnəyə çıxıb və məşhur hitlərini ifa edib. O, həmçinin Aleksandr Marşal, Soso Pavliaşvili, Diana Arbenina, Dima Bilan, Vladimir Presnyakov, EMİN, Valeri Meladze, Sergey Lazarev ilə duetlər oxuyub. Konsertin sonunda "Jara" festivalının təşkilatçıları EMİN, Qriqori Leps və Sergey Kojevnikov səhnəyə çıxıblar. EMİN festivalın təşkilinə göstərdikləri dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya bir daha minnətdarlığını bildirib. Gecə atəşfəşanlıqla yekunlaşıb. Bununla da dörd gün ərzində tamaşaçılara unudulmaz anlar bəxş edən "Jara-2017" Beynəlxalq Musiqi Festivalı başa çatıb. Ötən dörd gündə onlar, sözün əsl mənasında, "Jara"nın hərarətini hiss etdilər, bu musiqi bayramının həyəcanını yaşadılar. Builki festival "Jara"ya təkcə paytaxtımızın sakinlərinin deyil, dünyanın müxtəlif guşələrindən musiqi həvəskarlarının da böyük maraq göstərdiklərini sübut etdi. Müğənni və bəstəkar EMIN-in, Əməkdar Artist Qriqori Lepsin, "Russkoye radio"nun və "Qızıl qrammofon" mükafatının təsisçisi Sergey Kojevnikovun birgə təşkilatçılığı ilə ərsəyə gələn festivalın iştirakçılarının sayının artması "Jara"ya marağın yüksək olmasından xəbər verir. Belə ki, əgər keçən il Bakıya artistlər, musiqiçilər, rəqqaslar və onları müşayiət edən heyətlərlə birlikdə 500-dən çox qonaq gəlmişdisə, bu il bu rəqəm 800-ü keçdi.

Festival çərçivəsində Alla Puqaçovanın, Sofiya Rotarunun, Qriqori Lepsin yaradıcılıq gecələri keçirildi. Filip Kirkorov, A'Studio, LOBODA, Valeri Meladze, EMİN, Ani Lorak, Dima Bilan, Nikolay Baskov, Layma Vaykule, Kristina Orbakayte, Oleq Qazmanov, Diana Arbenina, Aleksandr Panayotov, Slava, Soso Pavliaşvili, Lolita və rus estradasının digər məşhur simaları sevilən mahnılarını səsləndirdilər.

# Bu gün Azərbaycanı dünyaya tanıdan amillərdən biri də dilimizə olan ehtiramdır və bu yöndə həyata keçirilən dövlət siyasətidir

*Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Jalə Əliyevanın yap.org.az-a müsahibəsi*

***- Jalə xanım, bildiyimiz kimi Ümummilli lider Heydər Əliyevin qərarı ilə 2001-ci ildən etibarən 1 avqust tarixi ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan dili Günü kimi qeyd olunur. Sizcə, bu qərarın tarixi əhəmiyyəti nədən ibarətdir?***

- Ümumiyyətlə, Ulu öndərimiz Heydər Əliyevin verdiyi qərarlar, imzaladığı sənədlər təkcə dünənimiz və bugünümüz üçün deyil, o cümlədən gələcəyimiz üçün də çox aktualdır və xalqımızın mənafeyinə xidmət edir. Ulu öndər Heydər Əliyev hələ sovetlər dönəmində respublikamıza rəhbərlik edərkən ana dilimizi qoruyub və təbliğ edib.

1969-cu ilin iyul ayında respublikanın rəhbəri seçilən Heydər Əliyev, cəmi bir-neçə aydan sonra o vaxtkı Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində nitq söylədi. Həmin dövrdə belə bir addım, həqiqətən, böyük bir cəsarət istəyirdi. Sovetləşmə isə bütün SSRİ məkanında sürətlə davam edirdi. Və belə bir zamanda - 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyası hazırlanarkən, respublikanın rəhbəri Heydər Əliyev, şəxsən özü yaradıcı ittifaqlara xəbər göndərməli olmuşdu ki, Konstitusiyaya Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması barədə xüsusi maddə salınmasını tələb etsinlər. Nəticədə, Konstitusiyada, Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir - maddəsi təsdiq olundu. Bu addım, bu cəsarətli addım müstəqil bir ölkədə deyil, milli hüquq və azadlıqların məhdudlaşdırıldığı, milli köklərin unutdurulmağa çalışıldığı, totalitar imperiyaya bağlı olan bir ölkədə, sovet respublikası olan Azərbaycanda atılırdı.

Daha sonrakı illərdə də ana dilimizin qorunması üçün gördüyü işlərə görə biz Ümummili liderimizə borcluyuq. Belə ki, müstəqillik dövründə də Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dilinin qorunması və inkişafı baxımından mühüm tədbirlər görüldü. Əvvəla, Ulu öndər Heydər Əliyev tərəfindən imzalanmış "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanın Azərbaycan dilinin qorunması və inkişafı baxımından əhəmiyyətinə toxunmaq istəyirəm. Bəllidir ki, dil məsələsi ilə bağlı çox ciddi sənədlər qəbul olunub. Onlardan ən mühümü 2001-ci ilin iyun ayında Ulu öndər Heydər Əliyev tərəfindən "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanın imzalanmasıdır.

Hesab edirəm ki, Azərbaycan dilinin tarixində bu səviyyədə sənəd qəbul olunmayıb. Çünki sənəddə çox ciddi, strateji münasibət ortaya qoyulub. Sənəddə dilin tarixindən başlamış, müasir dövrümüzə qədər olan məsələlər geniş şəkildə öz əksini tapır. Dövlətin dil siyasətini bütün miqyası ilə olduqca dolğun şəkildə əks etdirən fərman həm də, elmi-metodoloji məzmunu ilə diqqəti cəlb edir. Əlbəttə, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin əsəri idi. Burada Heydər Əliyevin qurduğu dövlətin milli dil siyasəti əks etdirilir, həmin dövlət uğrunda aparılmış mübarizənin tarixi və gələcəyi ifadə olunur.



Heydər Əliyevin fərmanı ilə 1 avqust tarixinin ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan dili günü kimi qeyd olunması da bu baxımdan önəmlidir. Bu, sıradan bir qərar deyil. Biz bu günü qeyd edərkən yaddaşlarımızı saflaşdırırıq, yeniləyirik və bu dilin uğrunda aparılan mübarizəni unutmayaraq onu gələcək nəsillərə ötürməli olduğumuzu bu tarix bizə dönmədən xatırladır.

Yəni 1 avqust tarixinin əhəmiyyəti bu günü ildə bir dəfə qeyd etməkdən ibarət deyil. Ulu öndərimizin həmin qərarı onu ifadə edir ki, bu günə gətirən yol o qədər böyük, şərəfli və keşməkeşlidir ki, xalq öz dili uğrunda apardığı mübarizə üçün qürur, iftixar hissi keçirə bilər. Bu qürur və iftixarı da bizə yaşadan Ümummilli liderimiz Heydər Əliyevdir. Ümumiyyətlə, bu gün Azərbaycanı dünyaya tanıdan, hörmət qazandıran amillərdən biri də dilimizə olan ehtiramdır və bu yöndə həyata keçirilən dövlət siyasətidir.

***- Mühüm hadisələrdən biri də latın qrafikalı əlifbaya keçid idi. Bu əlifbaya keçidin üstünlükləri nə idi?***

- Latın qrafikalı əlifbaya keçid çox əhəmiyyətli məsələdir. Biz 70 ilə yaxın müddətdə kirill əlifbasından istifadə etmişik ki, bu əlifba da sovetlər dövründə məcburən qəbul etdirilib. Kirill əlifbasının yaxından-uzaqdan soyumuzla bağlı heç bir əlaqəsi yoxdur. Müstəqillk illərində Ulu öndərimiz Heydər Əliyevin qərarı ilə latın qrafikalı əlifbaya tam keçid Azərbaycanın dünyaya açdığı pəncərənin daha da genişlənməsinə səbəb oldu. Bu, dünya ədəbiyyatına qovuşmaq, onu daha yaxın izləmək, eləcə də köklərimizə qayıtmaq nöqteyi nəzərindən latın əlifbasına keçid önəmli qərar idi. Ona görə də, eyni zamanda, Əlifba Günü kimi də 1 avqust tarixi bizim üçün dəyərlidir.

***- Ümummilli lider Heydər Əliyev tərəfindən bu sahədə əsası qoyulan siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu barədə fikirlərinizi bilmək istərdik...***

- Ulu öndərimiz Heydər Əliyev bütün sahələrdə olduğu kimi Azərbaycan dilinin qorunması və inkişafı üçün əvəzedilməz xidmət göstərib. Hazırda Prezident İlham Əliyev Heydər Əliyev siyasətini hər bir istiqamət üzrə böyük uğurla davam etdirir. Hər bir azərbaycanlının Prezidenti olan cənab İlham Əliyevin Azərbaycan dilinin qorunması və inkişafı istiqamətində atdığı addımlar da əvəzedilməzdir.

Hamımıza məlumdur ki, 2004-cü ildə ölkə Prezidenti İlham Əliyev "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 2007-ci ildə isə "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" sərəncamlar imzaladı. Bu sərəncamlar, ölkə rəhbərinin ana dilinə qayğısının və sevgisinin nümunəsi, öz vətəndaşlarını daha savadlı, daha məlumatlı görmək arzusu idi. Bu sərəncamlar xalqın özünə qayıdışına, xüsusilə gənc nəslin, böyüməkdə olan uşaqlarımızın milli dəyərlərimizə, milli mənəviyyatımıza daha sürətlə və uğurla sahib çıxmasına ölkə rəhbərinin göstərdiyi yardım idi.

***- Jalə xanım, Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi ilə bağlı müvafiq dövlət proqramları qəbul edilib. Bu proqramların və digər sənədlərin əhəmiyyəti nədən ibarətdir?***

- Biz müstəqil bir dövlətin vətəndaşlarıyıq. Müstəqil siysətimiz olduğu kimi müstəqil ana dilimiz də var və dövlət dili olaraq Azərbaycan dilinin qorunması üçün atılan bütün addımlar çox əhəmiyyətlidir. Bilirsiniz ki, bu istiqamətdə dövlət başçısı tərəfindən müvafiq qərarlar verilib, dövlət proqramları təsdiqlənib. Mən bu sırada "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın adını çəkmək istəyirəm. Bu Sərəncam olduqca böyük əhəmiyyət kəsb edir. Dövlət proqramında məhz cəmiyyətdən gələn narahatçılıq və dilimizlə məşğul olan insanların narahatçılığı bənd-bənd öz əksini tapıb. Sənəddə Azərbaycan dili ilə yanaşı, Azərbaycan dilçiliyinin, tərcümə fəaliyyətinin, terminologiya istiqamətinin də inkişafına diqqət verilir və məsələ kompleks şəkildə öz həllini tapır. Çünki Azərbaycan dilinin bu gün televiziyada, mətbuat orqanlarında, küçədəki reklam lövhələrində, mətbu nümunələrində yad elementlərdən xali olmadığı bizim hər birimizə yaxşı məlumdur və bu baxımdan qeyd etmək istəyirəm ki, ölkə başçısının bu yöndəki Sərəncamı tarixi əhəmiyyətli bir sənəddir.

***- Dövlət dili olaraq Azərbaycan dili ilə bağlı qanunvericilik bazası haqqında nə deyə bilərsiniz?***

- Bilirsiniz ki, Azərbaycan dili haqqında ayrıca qanun var və bu qanunda bütün məsələlər öz əksini tapır. Eyni zamanda, "Mədəniyyət haqqında" qanunda da Azərbaycan dili ilə bağlı müddəalar var. Ümumiyyətlə, millət vəkili olaraq çalışırıq ki, bütün qanunlarda dilimizin saflığı qorunsun və qanunlar Azərbaycan dilinin tələblərinə cavab versin. Eyni zamanda, ona da diqqət yetirilir ki, qəbul olunan qanunlar hər bir vətəndaşımız üçün anlaşılan olsun. Azərbaycan dilini qorumaq və gələcək nəsillərə çatdırmaq hər birimizin ən ali borcudur.



## Təhsil naziri Tovuzda vətəndaşları qəbul edib

İyulun 31-də təhsil naziri Mikayıl Cabbarov Tovuz şəhərindəki Heydər Əliyev Mərkəzində Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarının sakinlərini qəbul edib. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl təhsil naziri Mikayıl Cabbarov və Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov Heydər Əliyev Mərkəzində ümummilli liderin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2017-ci ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər. Qəbulda müəllimlərin yerdəyişməsi və işə qəbulu, direktorların işə qəbulu digər məsələlərlə əlaqədar vətəndaşların müraciətlərinə baxılıb. Bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq struktur bölmələrinə və yerli təhsili idarəetmə qurumlarına tapşırıqlar verilib, əksər məsələlər isə yerindəcə həllini tapıb.

## Sergey Markov: "Ermənistan iki cəbhəyə oynamağa çalışır"



Ermənistanın NATO ilə əməkdaşlığı genişləndirməsi onu göstərir ki, Yerevan iki cəbhə boyunca oynamağa çalışır. Bunu Trend-ə Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi, Rusiya İctimai Palatasının üzvü, politoloq Sergey Markov deyib.

Onun sözlərinə görə, bu gün Gürcüstanda başlayan və NATO-nun himayəsi altında keçirilən çoxmillətli hərbi təlimlərdə iştirak etməklə Ermənistan Rusiya ilə yanaşı Qərb koalisiyası ilə də münasibətləri qoruyub saxlamağa çalışır: "Məlumdur ki, bu gün bir çox ölkə NATO ilə əməkdaşlığı dəstəkləyir. Biz görürük ki, Gürcüstan tam şəkildə alyansın müttəfiqidir. Azərbaycan, Qazaxıstan, Belarus Qərb koalisiyası ilə sıx münasibətlər saxlayır. Bununla belə, bu ölkələrin heç biri NATO təlimlərində iştirak etmir". S.Markov qeyd edib ki, Ermənistan isə Rusiya ilə müttəfiq olduğunu desə də, əslində başqa siyasət, digər sözlə NATO ilə geniş əməkdaşlıq siyasəti yeridir. Onun sözlərinə görə, Ermənistan öz müttəfiqi qismində Rusiyadan mənafeləri üçün istifadə edir. "Bu yolla da Ermənistan rəhbərliyi nümayiş etdirir ki, onlar Rusiyanın Azərbaycanla əməkdaşlığından, xüsusilə də Rusiya silahlarının Azərbaycana satışından məmnun deyil".

## Niyazinin mənzil-muzeyində "Açıq qapı" günü keçiriləcək



Xalq Artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları və C.Nehru adına beynəlxalq mükafat laureatı maestro Niyazinin vəfatından 33 il ötür. AZƏRTAC xəbər verir ki, bu münasibətlə Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyinin və Niyazinin mənzil-muzeyinin kollektivi Fəxri xiyabanda maestronun məzarını ziyarət edəcək. Bundan başqa, Niyazinin mənzil-muzeyində "Açıq qapı" günü təşkil olunacaq. Avqustun 2-dən start veriləcək "Açıq qapı" günü çərçivəsində qonaqlara maestro haqqında sənədli filmlər, onun konsertlərindən, "Rast" muğam-baleti və "Çitra" baletindən videogörüntülər təqdim olunacaq. Musiqisevərlər gün ərzində maestronun mənzil-muzeyini ziyarət etmək imkanı əldə edəcəklər.

# Mütərəqqi sosial siyasət davamlı uğurları ilə məntiqi nəticəsini göstərməkdədir

*“Prezident İlham Əliyev qarşıya belə məqsəd qoyub ki, Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri sırasında olmalıdır və bu istiqamətdə 2003-cü ildən məqsədyönlü siyasət həyata keçirilir”*

***Əhalinin yüksək rifahının təmin olunmasına yönəldilmiş konkret tədbirlər sistemi olan sosial siyasət, mürəkkəb struktura malik olmaqla, çoxcəhətli prosesdir. Bu siyasətin hər hansı bir göstəricisini əsas götürərək, bütövlükdə, cəmiyyətin inkişafı barədə fikir yürütmək olar. Hər bir cəmiyyət, öz inkişafına uyğun olaraq, sosial siyasəti formalaşdırır və bu siyasətin həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin edir. Baş verən ictimai, iqtisadi və digər inkişaf reallıqları sosial siyasətin məzmununun, mahiyyətinin zənginləşməsində böyük əhəmiyyət kəsb edir.***

Belə ki, müasir dövrümüzdə sosial siyasətin müəyyən olunmuş əsas tərkib hissələri bir çox tədqiqatçılar və mütəxəssislər, eləcə də, politoloqlar tərəfindən yüksək qiymətləndirilməkdədir. Bunlar məşğulluq, sosial təminat, təhsil, səhiyyə, mənzil şəraiti, əməyin mühafizəsi, istirahət və asudə vaxtın təşkili və sairdir. Bu tərkib hissələrinin hər birinin özü müxtəlif, lakin bir-birinə bağlı məsələləri qadın, ailə, gənclər və uşaqların, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsini özündə birləşdirir. Bütövlükdə isə, bunlar Azərbaycan xalqının sosial təminatını təşkil edir. Məhz bu baxımdan, ötən 14 ildə Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət öz davamlı uğurları ilə nəticəsini göstərməkdədir.

Onu da qeyd etmək yerinə düşərdi ki, ötən dövrdə regionlarda iqtisadiyyatın inkişafını sürətləndirən tədbirlərin, bununla bağlı dövlət dəstəyinin istiqamətlərinin müəyyən edildiyi proqramların təsdiqi ölkəmizin inkişafında yeni bir mərhələnin başlanğıcı olmuş və onun uğurla icrası nəticəsində Azərbaycanın, demək olar ki, bütün bölgələrində davamlı olaraq əməktutumlu, rəqabətqabiliyyətli yeni istehsal müəssisələri, xidmət sahələri istifadəyə verilmiş, ölkənin hərtərəfli potensialı hərəkətə gətirilmişdir. Belə ki, beş ildən bir qəbul olunan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları, ölkənin iqtisadi inkişafının mühüm təkanvericisi missiyasını yerinə yetirməklə, vətəndaşların sosial rifahının yüksəldilməsində müstəsna rol oynamışdır. Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin nəticəsi kimi regionlarda tarazlı inkişafla yanaşı, sosial məsələlər də yoluna qoyulmuş, əhalinin məşğulluğu və real gəlirləri artmış, yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşmüşdür.

**Millət vəkili Musa Quliyev: “Ölkəmizdə bütün vətəndaşların sosial təminat hüquqları təmin edilir”**

“Azərbaycanda həyata keçirilən sosial siyasətin bir neçə istiqaməti var və bu siyasət insanların keyfiyyətli həyat sürməsinə yönə-



lib”. Bunu SİA-ya Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin üzvü, deputat Musa Quliyev deyib.

Azərbaycanın, BMT-nin İnsan İnkişafı İndeksinə görə, 200 dövlət arasında 70-ci yerlərdə dayandığını deyən deputat qeyd edib ki, bu göstəriciyə əhalinin sosial rifah halının ardıcıl şəkildə yaxşılaşması, pensiya təminatı, məşğulluğun təmini, yoxsulluğun aşağı salınması, mənzil təminatının yaxşılaşdırılması, təhsil və səhiyyə imkanlarının yaxşılaşdırılması ilə nail olunub: “Ölkəmizdə bütün vətəndaşların sosial təminat hüquqları təmin edilir. Yəni vətəndaşlar işlə təmin olunur, dövlət hər bir kəsin sağlamlığına, təhsil almasına, sağlam mühitdə yaşamasına təminat verir”.

M.Quliyev qeyd edib ki, Azərbaycanda, eyni zamanda, sosial müdafiəyə ehtiyacı olan insanlara dövlət öz yardımını göstərir: “Yəni onlara ünvanlı sosial müavinətlər verilir, əməkdə, təhsildə, mədəniyyətdə və s. sahələrdə fərqlənənlərə Prezidentin xüsusi təqaüdü verilir. Bundan başqa, dövlət tərəfindən əhalinin mənzil təminatının yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür”.

**Millət vəkili Eldar İbrahimov: “Sosial-iqtisadi inkişaf strategiyası uğurla həyata keçirilir və yeni dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilir”**

“Azərbaycanda bütün sosial-iqtisadi məsələlər uğurla öz həllini tapır”. Bu fikirləri isə Milli Məclisin deputatı Eldar İbrahimov deyib.

Onun sözlərinə görə, bu gün Azərbaycanın abadlaşmayan və sosial simasını dəyişməyən bölgəsi yoxdur: “Biz daim yeni tikinti, sosial, mədəni və digər obyektlərin təməlinin qoyulmasının və ya açılışının şahidi oluruq. Bu gün Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi sosial-iqtisadi inkişaf strategiyası uğurla həyata keçirilir və yeni dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilir. Prezident İlham Əliyev qarşıya belə məqsəd qoyub ki, Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrinin sırasında olmalıdır və bu istiqamətdə 2003-cü ildən məqsəd-



yönlü siyasət həyata keçirilir. Bu, həm daxili, həm də xarici siyasətdə özünü göstərir”.

E.İbrahimov əlavə edib ki, Azərbaycanın daxili siyasətində inkişaf şaxələndirilmiş iqtisadi strategiyaya əsaslanır.

Onun sözlərinə görə, Azərbaycan dövləti neft kapitalının insan kapitalına çevrilməsini, neft gəlirlərinin qeyri-neft sektoruna yatırılması ilə ölkənin bütün regionlarının inkişafının təmin etdirilməsini qarşıya məqsəd qoyub.

Deputat qeyd edib ki, 2004-cü ildən başlayaraq, regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları icra olunur və hazırda bu proqramların üçüncü mərhələsi həyata keçirilir.

Onun sözlərinə görə, dövlət proqramlarında qarşıya qoyulan məqsədlərin hamısı, demək olar ki, icra olunur.

Azərbaycanda təhlükəsizlik tədbirlərinin də yüksək səviyyədə olduğunu vurğulayan E.İbrahimov bildirib ki, ölkəmiz dünyada sabitlik məkanı kimi tanınır. Belə bir şəraitdə isə, həm investisiyaların qoyuluşuna maraq göstərilir, həm də əhalimizin rifah halı yaxşılaşır.

**Millət vəkili Fazil Mustafa: “Azərbaycanda son illər ərzində sosial sahədə gözlənildiyindən daha çox addımlar atılıb”**

“Son illər ərzində Prezident İlham Əliyev tərəfindən əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün infrastruktur layihələrinə xüsusi diqqət yetirilib”. Bu fikirləri isə deputat Fazil Mustafa sö-



zügedən mövzu ilə bağlı mətbuata verdiyi açıqlamasında vurğulayıb. O, qeyd edib ki, əhalinin aztəminatlı, xüsusilə, yoxsul təbəqəsinin və əlillərin problemlərinin həlli istiqamətində addımlar atılıb: “Azərbaycan İpoteka Fondunun yaradılması, ipoteka şərtlərinin asanlaşdırılması, əhalinin mənzil problemlərinin həlli üçün imkanların yaradılması, sosial evlərin tikintisinə başlanılması, əlillər üçün evlərin tikilməsi, jurnalistlərə evlərin paylanılması - bunların hamısı sosial kateqoriyaya aid olan məsələlərdir”.

Deputat son illər ərzində sosial sahədə mövcud olan bir çox nöqsanların aradan qaldırıldığını söyləyib.

Onun sözlərinə görə, əvvəllər sosial müavinətlərin verilməsi, əlilliyin müəyyən edilməsi sahəsində mövcud olan bir çox neqativ hallar ortadan qaldırılıb.

F.Mustafayev deyib ki, sosial sahə bütün ölkələrdə, o cümlədən, ABŞ-da həmişə nöqsanların olduğu sahə olub: “İstər-istəməz əhalinin işsizi də, yoxsulu da, müəyyən problemləri həll edilməyənləri də olur. Amma bu insanların sıxıntı içində qalmamaları üçün bu istiqamətdə vaxtaşırı çevik qərarların qəbul olunması vacibdir. Devalvasiya zamanı kreditlərlə, bank kartları ilə bağlı insanların müəyyən çətinlikləri yarandı. Amma bu sahədə də, müəyyən islahatların aparılması ümid yaratdı ki, devalvasiya və başqa proseslərdən zərər çəkmiş insanların problemlərinin həlli istiqamətində müəyyən müsbət addımlar atılacaq”.

Verilən açıqlamalardan və rəylərdən də göründüyü kimi, məhz bu siyasətin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə reallaşdırılması vətəndaşların rifah halının yaxşılaşmasına xidmət edən tədbirlərin ilbəil gücləndirilməsinə şərait yaradıb. Bu baxımdan, tam əminliklə deyə bilərik ki, əhalinin rifahının yüksəldilməsi şərtləndirən bir amil - uğurlu sosial siyasət faktoru reallaşdırılmaqda davam edir. Belə ki, əhalinin sosial durumunun yüksəlməsi həm də ölkədə sabitliyə və davamlı inkişafa təminatdır. Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında görülən işlər ölkəmizdə iqtisadi islahatların dərinləşməsini və xalqın həyat səviyyəsinin dinamik olaraq daha da yaxşılaşmasına xidmət edir.

***Rövşən NURƏDDİNOĞLU***

## Azərbaycan və İsrail arasında müdafiə sənayesi sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb

İyulun 31-də Müdafiə Sənayesi Nazirliyində (MSN) Azərbaycanda səfərdə olan İsrailin Müdafiə Nazirliyinin müdafiə ixracı və müdafiə əməkdaşlığı üzrə şöbəsinin (SİBAT) müdiri Mişel Ben Baruhun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. MSN-dən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinə nazirliyin fəaliyyəti barədə məlumat verilib. Görüşdə Azərbaycan və İsrail arasında müdafiə sənayesi sahəsində əməkdaşlığa və qarşılıqlı maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparılıb. İsrailin Azərbaycandakı səfiri Dan Stav da görüşdə iştirak edib.

## Naxçıvan Muxtar Respublikasında ixracın həcmi artıb

Bu ilin yanvar-iyun aylarında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 203822,2 min ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranıb. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, xarici ticarət dövriyyəsinin 190657,8 min ABŞ dollarını, yaxud 93,5 faizini ixrac, 13164,4 min ABŞ dollarını, yaxud 6,5 faizini idxal təşkil edib. Bir il öncəyə nisbətən ixracın həcmi 1,3 faiz artıb, idxalın həcmi isə 30,2 faiz azalıb.

# Qətər səfiri Mətbuat Şurasında olub



**Qətər dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Yusif bin Həsən əl-Sai Azərbaycan Mətbuat Şurasında olub. Mətbuat Şurasından SİA-ya verilən məlumata görə, Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, rəhbərlik etdiyi qurum dünyanın, o cümlədən İslam aləminin media təşkilatları ilə ölkəmizin kütləvi informasiya vasitələrinin qarşılıqlı əməkdaşlığının qurulmasına dəstək göstərir.**

"Bu baxımdan Türkiyə və İran, habelə postsovet məkanındakı İslam ölkələrinin jurnalistləri ilə qarşılıqlı təmasları vurğulamaq mümkündür. "Qətər müsəlman dünyasında qabaqcıl media ənənələrinə və strukturuna malik dövlətdir. Bu mənada yalnız "Əl-Cəzirə" telekanalının fəaliyyətin vurğulamaq da yetərlidir. Hesab edirəm ki, bu telekanalın deyil, ümumən Qətər mediasının təcrübəsinin öyrənilməsinə böyük ehtiyac var" - deyə, o vurğulayıb. Ə.Amaşov son vaxtlar Qətər dövləti ilə bağlı beynəlxalq siyasi arenada gedən proseslərə də diqqəti çəkib. O, baş verənlərin Azərbaycan mediasının da gündəmində olduğunu vurğulayıb. Deputat həmçinin bildirib ki, ölkəmizin jurnalistləri ümumən Yaxın Şərqdə yaşanan proseslərin işıqlandırılmasında ədalətli mövqe tutub və bu mövqenin dəyişməz qalacağına əmindir.

Səfir Yusif bin Həsən əl-Sai isə təmsil etdiyi ölkədə media orqanlarının fəaliyyət xüsusiyyətləri barədə məlumat verib. O, həmçinin Azərbaycandakı kütləvi informasiya vasitələrini mütəmadi şəkildə izlədiyini vurğulayıb. Səfir bildirib ki, Azərbaycan mediası dünyada baş verən ictimai-siyasi, sosial-iqtisadi və mədəni proseslərə kifayət qədər həssaslıqla yanaşır. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, Azərbaycan və Qətər mediası arasında əməkdaşlığın mümkün perspektiv variantları müzakirə olunub. Qeyd edək ki, görüşdə MŞ sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli və MŞ İdarə Heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə də iştirak edib.

## Dmitri Yablonski: "Ötən doqquz ildə Qəbələ Beynəlxalq Musiqi Festivalı böyük uğur qazanıb"



Qəbələ Beynəlxalq Musiqi Festivalının böyük potensialı var. Hətta deyərdim ki, gözəl təbiət qoynunda ənənəvi olaraq keçirilən bu festivalı parlaq gələcək gözləyir. Festivalın təməli yaxşı qoyulub, indi isə onu inkişaf etdirmək lazımdır. Özünüz də, görürsünüz ki, ötən 9 ildə böyük uğurlar əldə olunub. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində IX Qəbələ Beynəlxalq Musiqi Festivalının bədii rəhbərlərindən biri, "Kiyev virtuozları" Orkestrinin musiqi rəhbəri, İsrailin Yerusəlim Simfonik Orkestrinin dirijoru, dünya şöhrətli violonçel ifaçısı Dmitri Yablonski deyib. Qəbələ Beynəlxalq Musiqi Festivalının əhəmiyyətindən danışan D.Yablonski belə bir musiqi bayramının təşkilinə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib. Onun sözlərinə görə, Qəbələ festivalı artıq dünyada tanınır və qəbul olunur: "Bu musiqi tədbirində iştirak etmək bir çox musiqiçilərin arzusuna çevrilib və onlar dəvət gözləyirlər. Dünyanın tanınmış musiqiçiləri, solistləri Qəbələ səhnəsində konsert verirlər. Bu, böyük uğurdur. Təbii ki, həmin əcnəbi musiqiçilər öz ölkələrinə qayıdanda Azərbaycan barədə, Qəbələ haqqında danışırlar. Bu da Azərbaycanın dünyada daha da tanınmasına kömək edir".

## Dima Bilan: "Jara" dünya miqyasında parlaq musiqi hadisəsidir



Mən Azərbaycana, Bakıya həmişə xüsusi məmnuniyyət hissi ilə gəlirəm. Bu gözəl, əsrarəngiz diyarın sakinləri mənə hər zaman qonaqpərvərlik və səmimiyyət göstərir. Əlbəttə, yaradıcılığımı izləyənlər, ifamı dinləyənlər, məni sevənlər var. Bu da məni olduqca sevindirir. AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində "Jara" festivalının iştirakçısı, Rusiyanın tanınmış müğənnisi Dima Bilan söyləyib. "Jara" festivalını bütövlükdə dünya miqyasında parlaq musiqi hadisəsi adlandıran Dima Bilan bu möhtəşəm bayrama Rusiyanın, eləcə də dünyanın tanınmış estrada ulduzlarının toplaşdığını vurğulayaraq deyib: "Bu mükəmməl musiqi bayramının bir parçası olmaq məni sevindirir. Əminəm ki, tamaşaçılar dörd gün şəfəq saçan bu festivalı hələ uzun müddət xatirələrində yaşadacaqlar. Çox istərdim ki, "Jara" ənənəvi xarakter alsın".



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Emin "Milli"yə və qeyri-milli "Meydan" TV-yə

***Son günlər, "Meydan" TV və bu separatçı, eləcə də, ermənilərlə işləyən (!) media qurumunda çalışanların əsl simaları ifşa olunduqdan sonra özünə "Milli" ləqəbi götürən Emin Milli və əlaltısı Həbib Müntəzir dərhal onlara qarşı irəli sürülən ittihamları, öz təbirlərincə "rədd" edən və sual-cavabı əvvəlcədən hazırlanmış bayağı bir videomüsahibə hazırlayıblar. Bu barədə daha sonra qeyd edəcəm.***

Lakin bəri başdan onu bildirmək istərdim ki, E.Milli Azərbaycan əleyhinə kampaniya aparan qüvvələrin və erməni lobbisinin maraqlarına xidmət etmək üçün yaradılan "Meydan" TV-nin rəhbəri olaraq məqsədli şəkildə Azərbaycanla bağlı mənfi yüklü xəbərləri tirajlamaq, bununla ölkəmizin dövlətçilik ənənələrinə, eyni zamanda, beynəlxalq aləmdəki yüksələn imicinə zərbə vurmaqdır. Yəni göründüyü kimi, E.Milli heç də "milli"-filan deyil. O, xaricdəki separatçı dostlarının birbaşa sifarişini yerinə yetirir və ortaya çıxan həqiqəti nə qədər inkar etməyə cəhd göstərsə də, bu, onda yaxşı alınmır. Fakt isə budur ki, o öz aləmində Azərbaycanı nə qədər çox ləkələyərsə, daha çox pul qazana bilmək şanslarını artırır.

Gəlin, onun ermənilərə işlədiyini hər vechlə inkar etməsini sərgiləyən müsahibəsindəki bir sözünü araşdıraq. Bu şəxs deyir ki, heç vaxt "erməni soyqırımı"nı (dırnaqlar mənimdir) tanımayıb və ittihamlar ağ yalandır (?) və bunu belə əlaqələndirməyə çalışır ki, hansısa "müəllif" azərbaycanlı olmasına rəğmən, "erməni soyqırımı"nı tanıyırsa və bunu "azad media"da tirajlamaq istəyirsə, "Meydan" TV bunu əngəlləyə bilməzdi (???!!!). Əcəba, bəs hanı sənin "milliliyin"? hanı sənin "vicdanın" ki, qondarma soyqırımını tanıyan məqaləni "Meydan" TV-nin saytında işıqlandırırsan? Yaxud "heç bir erməni lobbisindən maliyyələşmirik" deyirsən, axı bu məqalənin yazılmasında, "Meydan" TV-də yerləşdirilməsində erməni barmağının olmadığını nə ilə, hansı dəlillə, arqumentlə sübuta yetirə bilərsən? Bundan sonra, iddiandakı kimi, "minlərlə izləyicilərinin" qarşısına çıxıb ağappaq yalanı hansı sifətlə onara döşəyirsən???!!! Məgər özün tərəfindən etiraf etdiyin bu faktın özü qondarma erməni soyqırımını tanımaq deyilmi, hörmətsiz Emin qeyri-milli?! Yoxsa ki, çıx internet məkanına və "bizə qarşı deyilənlər yalandır" deməklə, heç vaxt süddən çıxmış ağ qaşıq olduğunu sübuta yetirə bilməzsən, heç bilməyəcəksən də! Çünki sən Azərbaycana qarşı düşmən mövqeyində dayananlarla "çaşqa-loşka" olan bir satqınsan!

Elə də uzağa getmirəm və bir faktı ortaya qoyuram - Ulrike Lunaçek. Bu LGBT fəalı və psixikası pozuq olan, xəstə təfəkkürlü avropalı Avropa Parlamentinin vitse-prezidenti olmaqla yanaşı, erməni lobbisinin Avropa Parlamentində ən güclü lobbisti kimi tanınıb və özü də dəfərlərlə bəyan edib ki, siyasi fəaliyyətini cinsi azlıqların və ermənilərin müdafiəsinə həsr edir...

Əgər xatırlayırsınızsa, 2015-ci ilin 13-14 aprel tarixlərində Avropa Parlamentində "erməni soyqırımı"nın tanınmasına və 24 aprelin Avropa İttifaqına daxil olan ölkələrdə "erməni soyqırımı" günü kimi qeyd edilməsilə bağlı qətnamə qəbul edilmişdi. Həmin qətnamənin təşəbbüskarı, bilavasitə Ulrike Lunaçek olmuşdu.

Bununla bağlı məlumat Avropa Parlamentinin internet səhifəsində qeyd edildi. Daha sonra Ermənistanın Xarici İşlər Nazirliyinin internet səhifəsində qeyd edilmişdi ki, 2015-ci il 7 aprel tarixində Avropa Parlamentinin vitse-presidenti U.Lunaçekin dəstəyi ilə Avropa Komissiyasının binasında "erməni soyqırımı" - 100 illiyi ilə bağlı anma tədbiri təşkil olunub. Həmin tədbirdə çıxış edən Ulrike, bu məsələdə Ermənistana Avropa Parlamentində dəstək olacağına, "erməni soyqırımı"nın bütün Avropa ölkələrində tanınması ilə bağlı qətnamənin qəbul edilməsinin əhəmiyyətindən danışmışdı.

Məsələ yalnız bunda deyil və sözümün canı var. Ulrike Lunaçek ermənilərin Avropa Parlamentində ən böyük lobbistidir, bunu Emin Milli də yaxşı bildiyi halda, həmin ərəfələrdə Avropada tədbir keçirdi və Lunaçeki də həmin tədbirində başda otuzdurdu. Niyə? Bax bu sualın cavabını da biz Emin Millidən tələb edirik! Yəni E.Milli "Meydan" TV-nin ermənilərə və ermənilərə dəstək verənlərə işləmədiyini köklü, əsaslı arqumentlərlə ortaya qoysun, daha filan söz yalandır, filan söz beşməkəndirlərlə millətə yalan danışmasın!

Və bu həmin Lunaçekdir ki, E.Milli ondan bəhrələndiyi vaxt o da Xədicə İsmayılın, L.Yunusun bəlli məsələlərlə bağlı həbs olunduğu ərəfələrdə şəkillərini sinəsinə vurub, Azərbaycan dövlətinə qarşı siyasi şivənlik qaldırmışdı. (Halbuki L.Yunusun qızı Dinara Yunus "Odnoklassnik" sosial şəbəkəsində şəhid düşmüş Azərbaycan oğullarına "gəbərsinlər" statusunu yazmışdı (?!)). Bilirsinizmi, nəyə görə? Ona görə ki, vaxtilə Xədicə İsmayıl Avropada Azərbaycan nümayəndə heyətinin Qarabağ problemi və qaçqınlarımızla bağlı əsl həqiqətləri danışdığı bir zamanda, bir neçə Lunaçek tipli erməni sevdalıları ilə birgə bu tədbirə çox yekə dalını (!) çevirmişdi...AZƏRBAYCANA QARŞI! QARABAĞA QARŞI! MİLLƏTƏ QARŞI!

Sonda isə, E.Millinin həmin "müsahibəsi"ndəki gülünc, arqumentsiz və əsassız cavabına bircə kəlmə ilə cavab vermək istərdim. Bu şəxs, sözün həqiqi mənasında, utanmazcasına iddia edir ki, əgər onun özü ermənilərlə danışıqlara gedirsə, burada qəbahət, heç nə yoxdur və bunu erməniprəstliklə əlaqələndirmək olmazmış, sən demə, Azərbaycanın dövlət rəhbərliyi Ermənistan rəhbərliyi ilə görüşür və onlar da (yəni E.Milli) hakimiyyəti "erməniprəstlikdə" suçlaya bilər (?!). Nə qədər məntiqsiz və cılız bir düşüncədir! Bu şəxs hələ də bilmir ki, Azərbaycanın dövlət rəhbərliyi Ermənistanın dövlət rəhbərliyi ilə görüşməsində işğal edilmiş torpaqlarımızın azad olunması istiqamətində rəsmi danışıqlar aparır, düşmən qarşısında konkret tələblər qoyur və qoymaqda davam edəcək, ta o vaxta qədər ki, mənfur düşmən o torpaqlardan rədd olub getsin - istər sülh, istərsə də müharibə yolu ilə! Ancaq sən - Emin, qeyri-milli olaraq, ermənilər qarşısında öz əlaltılarınla müntəzir (!) dayanaraq, buyruq quluna çevrilmisən, nə qədər sən və sənin kimilər varsa, düşmən də bir o qədər azğınlaşacaq, işğal altındakı torpaqlarımızı əlində saxlamaq üçün sənin kimilərdən yararlanaraq, anti-Azərbaycan fəaliyyətini davam etdirəcək.

Onu da qeyd edim ki, qarşıda növbəti faktları açıqlayacağam. Əgər həqiqətən də, özünüzü "media" adamı sayırsınızsa, bu zaman ortaya "yalandır" deyib, yaxa qurtaran cavablar deyil, arqumentlər qoyun...

# Azərbaycan tranzit mərkəzinə çevrilir

***Bu gün Azərbaycan dünyada geosiyasi və geoiqtisadi əhəmiyyətilə seçilən transmilli layihələr reallaşdıran ölkə kimi tanınır. Təkcə Cənubi Qafqaz bölgəsini deyil, ümumilikdə böyük coğrafiyanı əhatə edən, hətta Avrasiya geosiyasi məkanda təhlükəsizlik və əməkdaşlıq münasibətlərinə töhfəsini verən proyektlər xüsusi diqqət çəkməkdədir. Belə layihələrin içərisində nəqliyyat proyektləri əhəmiyyətli rol oynayır. Tarixi İpək Yolunun keçdiyi Azərbaycanın yerləşdiyi ərazi bütün dövrlərdə Avropa və Asiyanı, ən uzaq dövlətləri birləşdirən, strateji ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkanlardan biri olub.***



Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası tərəfindən görülmüş işlər, iritonnajlı yük avtomobillərinin keçid prosedurlarının sadələşdirilməsi, gediş-gəliş xərclərinin təqribən 40 faizədək aşağı salınması nəticəsində, 2017-ci ilin yanvar-iyun aylarında ölkəmizin ərazisindən 16 minə yaxın yük avtomobilinin keçməsi Azərbaycanın tranzit yükdaşımaçılığı sahəsində getdikcə daha üstün mövqelərə sahib olduğunu göstərir. Bu rəqəm ötən ilin analoji dövrü ilə müqayisədə 1,5 dəfə çoxdur. Ümumiyyətlə, 2017-ci ilin yanvar-iyun aylarında ölkə ərazisindən 5,5 milyon ton yük daşınmışdır. Yüklərin 4,4 milyonu (80 faiz) neft və neft məhsullarının, 1,1 milyonu isə (20 faiz) qeyri-neft məhsullarının payına düşür. Ötən ilin analoji dövrü ilə müqayisədə neft və neft məhsullarının daşınmasında 23 faiz, qeyri-neft məhsullarında isə 36 faiz artım müşahidə olunur.

Coğrafi mövqe baxımından bir neçə nəqliyyat dəhlizinin qovuşuğunda yerləşən Azərbaycanın tranzit imkanları olduqca böyükdür. Xüsusən, hazırda ticarət dövriyyəsi 500 milyard dollar olan Çin və Avropa arasında yükdaşımalarda Şərq-Qərb marşrutundan və onun tərkib hissəsi olan Azərbaycanın nəqliyyat-tranzit imkanlarından istifadə edilməsi vaxt və maliyyə baxımından daha sərfəlidir. Ölkəmiz beynəlxalq yüklərin daşınmasının effektivliyini və rəqabətqabiliyyətliyini artırmaq üçün bütün imkanları uğurla səfərbər edir. Bu mənada, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılması ölkəmizin mühüm tranzit uğurlarından sayılır. Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın yükdaşımalarda iştirak edən müvafiq qurumlarının iştirakı ilə yaradılıb. Daha sonra Ukrayna, Rumıniya və Polşanın da aidiyyəti qurumları TBNM-ə qoşulub. Hazırda bu marşrut Çin-Qazaxıstan sərhədindən başlayaraq Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstandan keçməklə, Avropa ölkələrinə qədər uzanır. TBNM tərəfindən bütün marşrut boyu vahid keçid tarifi təyin olunub, "bir pəncərə" prinsipi tətbiq edilib və bu layihə çərçivəsində konteyner qatarları müvəffəqiyyətlə marşrut üzərindən daşınır.

Azərbaycanın iştirak etdiyi beynəlxalq nəqliyyat layihələrindən biri "Şimal-Cənub Nəqliyyat Dəhlizi"dir. Ölkəmizin tranzit potensialının artırılması istiqamətində görülən işlər bu nəqliyyat dəhlizinin Azərbaycandan keçən hissəsində işlərin sürətləndirilməsini zəruri edib. Bu məqsədlə Prezident İlham Əliyev 2015-ci il dekabr ayında "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirmək üçün bütün qüvvələr səfərbər olunub. Artıq Astara stansiyasından İran sərhədinə qədər 8,3 kilometr uzunluğunda dəmir yolu çəkilib. Astara çayı üzərindəki dəmir yolu körpüsünün tikintisi başa çatıb. Həmçinin, sınaq qatarı sərhədi yeni tikilmiş körpü vasitəsilə keçib. Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirən "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi", Azərbaycan üçün çox önəmli marşrut olaraq, respublikamızın tranzit potensialından yüksək səviyyədə bəhrələnməyə imkan verəcək. "Bu layihə Hindistandan başlayaraq, İrandan keçməklə Azərbaycan, Rusiya, Fin körfəzinə qədər ərazini əhatə edir. Azərbaycan isə "Şimal-Cənub Nəqliyyat Dəhlizi" çərçivəsində dünyanın böyük iqtisadiyyatlarını birləşdirəcək. Bu layihənin gerçəkləşdirilməsi yüklərin ünvanına çatdırılma müddətlərini 2-3 dəfə azaldacaq. İran bu dəmir yolu layihəsinin inşası üçün 2016-cı ildə Hindistanla müqavilə imzalayıb. Hindistanın "IRCON" Dövlət Şirkəti dəmir yolunun Çabahardan Zahedana qədər olan 500 kilometrlik hissəsini tikmək barədə razılıq verib. Bu hissəsinin tikintisi üçün 1,6 milyard dollar ayrılıb.

Azərbaycanda dəniz nəqliyyatının inkişafına xüsusi diqqət yetirilir. Ələt qəsəbəsində tikilən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi tezliklə regionun avtomobil, dəmir və dəniz yollarının kəsişmə nöqtəsinə çevriləcək. Bu liman Çindən tutmuş Mərkəzi Asiya və Avropayadək daşımalara töhfəsini verəcək. Kompleksin bu ilin sonunda yekunlaşdırılacaq birinci fazasının yükaşırma qabiliyyətinin 15 milyon ton olacağı planlaşdırılır. Bundan əlavə, limanın ətrafında yaradılacaq azad ticarət zonası daha çox yükdaşımaların həyata keçirilməsinə imkan verəcək.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin tranzit uğurlarını ümumiləşdirərək deyib: "Azərbaycan nəqliyyat dəhlizlərinin yaradılması, üzərində uzun illərdir ki, çalışırdı və indi bütün zəruri nəqliyyat infrastrukturu artıq yaradılmışdır. Bizim bütün qonşularımızla şimal, cənub və qərb istiqamətində dəmir yolu əlaqəmiz var. Bizim bütün təyyarələri qəbul edə bilən altı beynəlxalq hava limanımız var. Bizim yükdaşıma donanmamız dünya miqyasında fəaliyyət göstərən ən aparıcı yükdaşıma donanmalarından biridir. Ölkəmiz regionla ən yeni magistrallar şəbəkəsi ilə birləşir. Biz daşımaların həcmini Xəzər dənizində yeni tikilmiş ən böyük liman vasitəsilə artırırıq. Onun birinci mərhələsi artıq fəaliyyət göstərir və növbəti il dəniz limanının tikintisinin tamamlanması bizə ən azı ildə 15 milyon ton yük və bir milyon ton konteyneri yükləyib-boşaltmaq imkanı verəcəkdir. Artıq Çindən Avropaya gedən sınaq konteyner qatarları Azərbaycandan keçir. Beləliklə, "Şərq-Qərb Nəqliyyat Dəhlizi", demək olar ki, icra edilib. Azərbaycan, nəinki təkcə ölkə daxilinə sərmayə yatırmış, eyni zamanda, Gürcüstana dəmir yolunu tikmək üçün 700 milyon dollardan çox maliyyə dəstəyi göstərmişdir. İndiki mərhələdə biz İranda dəmir yolunu tikmək üçün maliyyə dəstəyinin göstərilməsi məqsədilə iranlı qonşularımızla danışıqların ən son mərhələsindəyik. Bu dəmir yolu İran dəmir yollarını bizim dəmir yolları ilə birləşdirəcəkdir. Beləliklə, biz çoxsaylı dəhliz formatını, Azərbaycan ərazisindən keçən, Şimali Avropadan Hindistana qədər uzanan Şimal-Cənub və Çindən Qərbi Avropaya qədər uzanan Şərq-Qərb dəhlizlərini yaratmış olacağıq".

Göründüyü kimi, Azərbaycan ərazisindən keçən marşrutlar daha çox iqtisadi potensiala malikdir. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi də təsdiq edir ki, Azərbaycan hökumətinin bu istiqamətdə gələcək hədəfləri göstərən konkret strategiyası var.

***"Səs" Analitik Qrupu***

## 18 yaşına çatmamış 8760 uşağa aylıq sosial müavinət ödənilir



***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən beşdən çox uşağı olan qadınların 18 yaşına çatmamış 8760 nəfər uşağına aylıq sosial müavinət ödənilir. Bu barədə SİA-ya ƏƏSMN-in İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.***

Azərbaycan Prezidenti İlham Əliyevin 27 dekabr 2013-cü il tarixli "Beşdən çox uşağı olan qadınlara müavinətin məbləğinin müəyyən edilməsi haqqında" fərmanı ölkəmizdə çoxuşaqlı anaların sosial müdafiəsinin gücləndirilməsində əhəmiyyətli rol oynayır. Fərmana əsasən, 2014-cü ilin əvvəlindən beşdən çox uşağı olan qadınların 18 yaşına çatmamış hər bir uşağına görə aylıq 30 manat məbləğində sosial müavinət verilir. Cari ilin 1 iyul tarixinə ƏƏSMN tərəfindən ölkədə beşdən çox uşağı olan 3022 nəfər qadının 18 yaşına çatmamış 8760 nəfər uşağına aylıq sosial müavinət ödənilir. Ümumilikdə, ölkədə aylıq sosial müavinətlə təmin olunanların bir hissəsini də uşaqlar təşkil edir. Belə ki, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar, müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl AES əlillərinin, şəhid ailələrinin, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları, aztəminatlı ailələrin 1 yaşınadək uşaqları aylıq sosial müavinətlə təmin olunurlar. Ailə başçısını itirməyə görə aylıq müavinət və əmək pensiyası ödənilən ailələrdəki ailə üzvlərinin mühüm hissəsi uşaqlardan ibarətdir. ƏƏSMN tərəfindən cari ilin 6 ayında aylıq və birdəfəlik sosial müavinətlə təmin olunanların ümumi sayı isə 442,8 min nəfər təşkil edib.

# Azərbaycan multikulturalizmə böyük önəm verir

***Azərbaycan sivilizasiyaların kəsişdiyi məkanda yerləşən, mədəniyyətlərarası dialoqa töhfələrini əsirgəməyən respublikamız sosial-mədəni-humanitar sahələrdə dünyaya açılan məkandır. Dünyada qloballaşmanın yeni təzahürləri dövlətlərin sıx humanitar birliyində özünü göstərir. Məhz bu baxımdan sivilizasiyalararası dialoq, multikulturalizm meyilləri hər il dərinləşir, humanitar forumların keçirilməsi böyük əhəmiyyət kəsb edir. Regionda sabitliyin və qarşılıqlı həmrəyliyin, əməkdaşlıq şəbəkəsinin gələcəyi humanitar inteqrasiyadan və dialoqdan çox asılıdır. Çünki humantiarizm multikulturalizm deməkdir, başqa xalqın nümayəndəsinə və başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır.***

İqtisadi inkişafın yeni mərhələsinə daxil olan Azərbaycan artıq dünyada zəngin neft-qaz ölkəsi kimi deyil, həm də, sivilizasiyalararası dialoqa mühüm töhfə verən, beynəlxalq humanitar forumlara ev sahibliyi edən, tolerantlığın mərkəzinə çevrilən ölkə statusunda qəbul olunur. Respublikamız bu gün dünyanın 50-dən artıq ölkəsinə yanacaq ehtiyatlarının təchizatçısı kimi nüfuz sahibi olmaqla yanaşı, iqtisadiyyatın diversifikasiyası sayəsində potensial sərmayəçi kimi də diqqəti cəlb edir. Azərbaycan, regionda sabitləşdirici faktor rolunda çıxış edərək, bölgəninin təhlükəsizlik seqmentlərini formalaşdırır.



Azərbaycan neft ölkəsi kimi inkişaf etsə də, iqtisadi və sosial həyatın bütün sahələrindəki dinamika, modernləşdirmə epoxiyası, yüksək sivilizasiya ənənələrinin formalaşması və inkişafı, humantiar aksiyaların ənənə halını alması bu ölkənin hərtərəfli, dünya sivilizasiyasına mühüm töhfə verdiyini göstərir. Azərbaycan dünyanın zəngin humanitar mərkəzi, sivilizasiya məkanı hesab olunur. Azərbaycanın Avropa arenasında özünü, həqiqətən də, zəngin mədəni ənənələrə malik ölkə kimi təqdim etdiyini xatırladır və bildirir ki, ölkədə nəhəng quruculuq işləri paytaxtın və bölgələrin simasını dəyişdirib. Azərbaycan əsl Avropa ölkəsi kimi sivilizasiya mərkəzidir, hər il burada müxtəlif beynəlxalq forumlar təşkil olunur, dünyanın ən nüfuzlu iqtisadi və siyasi təşkilatlarının sammitləri keçirilir. Bu faktorlar Azərbaycanın nüfuz göstəricisidir.

Hazırda dünyada qloballaşmanın yeni təzahürləri dövlətlərin sıx humanitar birliyində özünü göstərir. Məhz bu baxımdan, sivilizasiyalararası dialoq, multikulturalizm meyilləri hər il dərinləşir, humanitar forumların keçirilməsi böyük əhəmiyyət kəsb edir. Multikulturalizm ölkələrin qarşılıqlı hörmət və sıx əməkdaşlıq mühitinin yaranmasında vacib bir amilə çevrilib. Azərbaycan multikulturalizmə böyük önəm verir və son 20 il ərzində müstəqil ölkə kimi həyata keçirilən siyasətin əsas təməllərindən biri də, məhz dünya ölkələri ilə humanitar əməkdaşlığı gücləndirməkdən ibarət olub. Regionda sabitliyin və qarşılıqlı həmrəyliyin, əməkdaşlıq şəbəkəsinin gələcəyi multikulturalizmdən çox asılıdır.

Son illərdə Bakıda keçirilən beynəlxalq humantiar forumlar da, məhz dünya ölkələrinin əsas müzakirə mövzusu multikulturalizmlə bağlı olub. Hər bir ölkə bu formulu gələcək üçün mühüm bir siyasi-ideoloji xətt sayır, multikulturalizmlə bağlı yeni çağırışları ortaya çıxarıb. Bu gün Azərbaycanın bütün qitə ölkələri ilə möhkəm dostluq və əməkdaşlıq münasibətləri var. Respublikamız müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən sarsılmaz dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant bir ölkə kimi formalaşıb. Müxtəlif qitələrin kəsişməsində yerləşən Azərbaycan həm də müxtəlif mədəniyyətlərin mövcud olduğu və qovuşduğu müqəddəs bir torpaqdır. Həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyi, üstəlik, formalaşmış və əsrlərin sınağından çıxmış ənənələri baxımından respublikamız dünya mədəniyyətlərini bir araya toplamaq haqqını qazanıb. Ona görə də, mədəniyyətlər və sivilizasiyalararası dialoq sahəsində keçirilmiş beynəlxalq səviyyəli tədbirlərin statistikasına və coğrafiyasına diqqət yetirəndə, bu sahədə təşəbbüslərin böyük əksəriyyətinin Azərbaycanda reallaşdırıldığı təsadüfi olmadığını görmək olar. Azərbaycan bir dostluq atmosferi yaratmaqla, hamını öz evində humanitar birgəliyə dəvət edir. Hər bir ölkə üçün xeyirxah olduğunu nümayiş etdirir.

***"Səs" Analitik Qrupu***

# "Zaman və məkan" adlı müsabiqə keçiriləcək

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı "Zaman və məkan" adlı qısametrajlı sənədli filmlər üçün ssenari müsabiqəsi elan edib. İttifaqın mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, yaşı 35-ə qədər olan bütün şəxslər ssenari müsabiqəsində iştirak edə bilərlər..

Şərtlərə görə hər bir müəllif 3 ssenaridən artıq təqdim edə bilməz. Birinci yerin sahibinə 1500, ikinciyə 1000, üçüncüyə isə 500 manat məbləğində pul mükafatı veriləcək. Ssenari müsabiqəsinin keçirilməsində məqsəd kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirməkdir. Ssenarilər oktyabrın 31-nə qədər təqdim edilməlidir

## Xəzərin sahilini çirkləndirən şəxslər müəyyənləşdirilərək inzibati məsuliyyətə cəlb ediliblər

Daxili İşlər Nazirliyinin (DİN) Baş İctimai Təhlükəsizlik İdarəsinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları respublikanın şəhər və rayonlarında, meşə, park, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında və çimərliklərdə məişət tullantılarının tutumundan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə mütəmadi tədbirlər həyata keçirirlər. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cari ilin ötən dövrü ərzində birgə keçirilmiş tədbirlər zamanı paytaxtın Səbail, Binəqədi, Xətai, Sabunçu, Suraxanı, Xəzər, Abşeron rayonlarında və Sumqayıt şəhəri ərazisində İnzibati Xətalar Məcəlləsinin 244-cü (torpaqların zibillənməsi və korlanması), 266-cı (istehsalat və məişət tullantıları haqqında qanunvericiliyin pozulması) və 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizə tələblərinə əməl edilməməsi) maddələrinin tələblərini pozmuş 34 fiziki, hüquqi və vəzifəli şəxs müəyyənləşdirilərək inzibati məsuliyyətə cəlb olunub, onlara tətbiq edilən cərimələr 42 min 850 manat təşkil edib. Ümumilikdə, cari ilin ötən dövründə şəhər, rayon polis orqanları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində İnzibati Xətalar Məcəlləsinin qeyd edilən maddələrinin tələblərini pozmuş 445 nəfər inzibati məsuliyyətə cəlb olunub, onlara tətbiq edilən cərimələr 71 min 200 manat təşkil edib.

# Baş Prokurorluq və Daxili İşlər Nazirliyi Hacıqabulda törədilmiş ağır cinayətlə bağlı məlumat yayıb





İyulun 31-də saat 06 radələrində Hacıqabul şəhər sakinləri Nazim, Gülbadam, Bibilə və Namiq Qənbərovların yaşadıqları evdə odlu silahla qətlə yetirilmələri, ailənin digər üzvü Məmməd Qənbərovun isə ağır bədən xəsarətləri ilə xəstəxanaya daxil olması və Mübariz Mehtiyevin odlu silahdan atəş açaraq intihar etməsi barədə daxil olmuş məlumat əsasında rayon prokurorluğu və polis şöbəsinin əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitlərə baxış keçirilib. Oradan cinayətin aləti olan ov tüfəngi və iş üçün əhəmiyyət kəsb edən digər maddi sübutlar götürülüb və zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Respublika Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, faktla bağlı Hacıqabul rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə), 29,120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürməyə cəhd), 29,120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürməyə cəhd) və 228.1-ci (qanunsuz olaraq odlu silah əldə etmə, saxlama və daşıma) maddələri ilə cinayət işi başlanıb, iş üzrə müvafiq ekspertizalar təyin edilib. İlkin araşdırmalarla əvvəllər məhkum olunmuş M.Mehtiyevin şəxsi münasibətlər zəminində M.Qənbərovdan qisas almaq niyyəti ilə onun yaşadığı evə gələrək qoşalüləli ov tüfəngindən atəş açaraq sonuncunu qəsdən öldürməyə cəhd etməsi və ailə üzvlərini qəsdən öldürməsi, sonra isə özünə atəş açaraq intihar etməsi müəyyənləşdirilib. Hazırda cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Tələbələrin köçürülməsi ilə bağlı qaydalar yeni redaksiyada təsdiq edilib



Təhsil naziri Mikayıl Cabbarov "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, tibb təhsilinin əsas tibb təhsili üzrə təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair müvəqqəti Qaydalar"ın yeni redaksiyada təsdiq edilməsi barədə əmr imzalayıb. Təhsil Nazirliyindən SİA-ya verilən xəbərə görə, əmrə əsasən, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, tibb təhsilinin əsas tibb təhsili üzrə təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair müvəqqəti Qaydalar" yeni redaksiyada təsdiq edilib.

Təhsil Nazirliyinin müvafiq struktur bölmələrinin və ali təhsil müəssisələrinin rəhbərlərinə tapşırılıb ki, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, tibb təhsilinin əsas tibb təhsili üzrə təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair müvəqqəti Qaydalar"ı işdə rəhbər tutsunlar. Əmrin icrasına nəzarət nazir müavini Ceyhun Bayramova tapşırılıb.



# Ermənistan: şəxsiyyətin ikiyə bölünməsi-dissosiativ pozulma

***Psixiatriya elmində şəxsiyyətin ikiyə bölünməsi diaqnozu var. Yəni şəxsiyyətin ikiyə bölünməsi insanın eyni zamanda iki və ya daha artıq şəxsiyyətə sahib ola bilməsi psixi fenomenidir. Belə pasiyentlərə psixiatrlar şəxsiyyətin dissosiativ pozulması diaqnozunu qoyurlar. Şəxsiyyətin ikiyə bölünməsini bir neçə amil törədə bilər. Məsələn, dözülməz dərəcədə stress, uşaqlıqda alınan emosional travmalar və s.***

Şəxsiyyətin dissosiativ pozulması olan insanlar özlərini çox asan şəkildə eyni situasiyada müxtəlif cür apara bilirlər. Onların davranışı hansı tərəfin üstün olmasından asılı olur. Bəzi hallarda xəstəlik o qədər inkişaf edir ki, pasiyent bir az bundan qabaq nə etdiyini xatırlamır. Elə təəsürat yaranır ki, o, tamamilə fərqli, daha doğrusu parallel bir-biri ilə heç vaxt kəsişməyən dünyalarda yaşayır.

Ermənistanın müstəqillik tarixinə diqqət yetirdikdə eynilə insanlarda müşahidə edildiyi kimi Ermənistan dövlətinin də şəxsiyyətin ikiyə bölünməsi-dissosiativ pozulma halını yaşadığını görmək mümkündür. Bu xəstəliyin simptomları erməni milli kimliyinin formalaşmasında ortaya çıxdığı kimi, təbii olaraq dövlət quruculuğunda da öz əksini tapmışdır.

Ermənistan coğrafi olaraq şərqdə yerləşən bir dövlətdir. Son 25 ildir xarici siyasətinin bütün sahələrində Rusiya amili şərtləndiricidr. Bir anlıq Rusiyanın yox olduğunu düşünsək Ermənistanın halı necə olar? Ermənistan kimə güvənər, kimə etibar edər, təhlükəsizliyini kim təmin edər? Belə bir təxəyyülün gerçəkləşməsi Ermənistan üçün əsl faciə olardı. Ermənistan öz torpağında Rusiyanın yerləşdirdiyi 102-ci hərbi bazasının maliyyə xərclərinin 62 faizini könüllü olaraq qarşılayır.[i] Ermənistan Rusiya ilə Birləşmiş ordu qruplaşmasının qurulması haqqında müqavilə imzalayır və bu qruplaşmanın komandanlığını yenə də könüllü olaraq Rusiyaya verir.[ii]Ermənistan Rusiyadan aldığı kreditlə silah alır və bu krediti faiziylə birlikdə geri ödəyir.[iii]

Ermənistan heç bir siyasi və hərbi ağırlığı, üzv dövlətlərin həmrəyliyi və ortaq strategiyası olmayan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qoşulub. Bu təşkilatın keçirilən bütün iclaslarında təşkilatdan şikayət edir, narazılığını bildirir.

Ermənistan iqtisadi olaraq Rusiyadan asılıdır. Demək olar ki, bütün strateji sənaye müəssisəlrinin nəzarət paketi Rusiyanın əlindədir.

Ermənistan enerji sahəsində də Rusiyanın dəstəyi olmadan problemlərini həll edə bilməz. Mestsamor Atom Elektrik Stansiyasi Rusiyadan alınan zənginləşdirilmiş uran hesabına işləyir, təbii qaz istehlakının böyük hissəsi Rusiyadan təmin edilir.

Ermənistanın əhalisindən çox erməni Rusiyada yaşayır. Bunların bir qismi Rusiya vtəndaşı olsa da, bir qismi də mövsümü işlərdə işləyənlərdir, Rusiya iqtisadiyyatının güclənməsinə xidmət edirlər.

Belə bir mənzərədə Ermənistan bəzən şəxsiyyətin ikiyə bölünməsi-dissosiativ pozulma simptomlarını ağır şəkildə yaşayır, özünü Avropa dövləti, mədəniyyət və sosial həyatını Avropayi hesab edir. Avrpa İttifaqı nümunəsində Avropa ilə sıx əməkdaşlıqğa təşəbbüs edir.

Ermənistan bə xəstəliyin təsiri altındaykən 24 iyul 2013-cü il tarixində Avropa İttifaqı ilə "Dərin və Hərtərəfli Ticarət Zonası Haqqında'' müqavilə mətni üzərində razılığa gəlmişdi. Ancaq Ermənistanın Gömrük Birliyinə üzv olması Vilnüs prosesindən kənarda qalması ilə nəticələndi. Həmin ilin noyabr ayında Vilnüsdə keçirilən Şərq Tərəfdaşlığı Zirvə görüşündə Ermənistan bu müqavilədən imtina etdi.

Ermənistan 5-6 il davam edən müzakirələrdən sonra imzalanma mərhələsində olan bu müqavilədən niyə imtina etdi? Müqavilə imzalanma ərəfəsində onun psixiatr həkimi qulağına bir neçə kəlmə pıçıldayıb onun avropalı yox, şərqli olduğunu xatırlatdı və bəzi mərhəm məqamları bildirən ifadələr dedi.

Ermənistan dərhal özünə gəldi, rəhbərliyi illərdir müqavilənin imzalanacağı təqdirdə xalqa xoş günlər gətirəcəyini vəd edən layihəni əli ilə kənara itib psixiatr həkiminin yazdığı resepti və dərmanları qəbul edəcəyini bildirdi.

Aradan bir neçə il keçəndən sonra Ermənistan yenə də şəxsiyyətin ikiyə bölünməsi-dissosiativ pozulma simptomları ilə Avropa İttifaqı ilə yeni müqavilə imzalamaq üçün müzakirələrə başladı. Belə ki, Moldovada Şərq Tərəfdaşlığı proqramında iştirak edən dövlətlərin XİN rəhbərlərinin iclasında Ermənistan XİN rəhbəri Edvard Nalbandyan Avropa İttifaqı ilə yeni müqavilənin detallarını müzakirə etdiklərini və bu qurum ilə geniş həcmli əməkdaşlıq məsələlərinə əhəmiyyət verdiklərini bildirdi.[iv]

Avropa İttifaqı Ermənistan ilə yeni müqavilənin imzlanacağına ümid etsə də, bu ölkənin şəxsiyyətin ikiyə bölünməsi-dissosiativ pozulma xəstəliyinə mübtəla olduğunu 2013-cü ildən bilsə də, psixiatr həkimindən icazə almadan yeni müalicə kursu təyin etməyə təşəbbüs göstərir.

Avropa İttifaqı xəstənin ikinci həkimi olmağa çalışır, müalicə proqramları hazırlayır amma pasiyentinin xəstəlik tarixçəsi kitabının birinci həkimdə olduğunu unudur. Bunu erməni siyasətçi Paruyr Ayrikyan çox dolğun ifadələrlə bir cümlədə belə xarakterizə edir: "Moskva hətta kiçik təhdidlə Ermənistan-Aİ arasında imzalanacaq müqaviləni neytrallaşdıra bilər.''[v]

Avropa İttifaqından fərqli olaraq Ayrikyan Ermənistanın yoluxduğu şəxsiyyətin ikiyə bölünməsi-dissosiativ pozulma xəstəliyinin müalicəsinin olduqca çətin və hətta imkansız olduğunu bilir.

Ayrikyanın dediyi kimi, böyük bir ehtimalla psixiatr həkim xəsətəsinə ikinci bir həkimin müdaxilə etməsinə icazə verməyəcəkdir. Bu, Ermənistanın daxili siyasi məsələlərinə müdaxilə və Dağlıq Qarabağ probleminin həlli istiqamətində ola bilər.

Ermənistan şəxsiyyətin ikiyə bölünməsi-dissosiativ pozulma xəstəliyinin növbəti sarsıntısını yaşayır və psixiatr həkiminin müdaxiləsi vacibdir.

***Hatəm Cabbarlı,***
***siyasi elmlər doktoru***
***Newtimes.az***

# Ermənistan boşalmaqda davam edir

## “Novosti-Armeniya”: “Doğum halları azalıb, ölüm isə artıb”



***Ermənistan əhalisinin sayı getgedə daha da azalmağa başlayır. Belə ki, ildən-ilə ölkəni tərk edənlərlə yanaşı, xalqın acınacaqlı vəziyyəti doğum hallarının azalması, ölüm hallarının isə artması ilə nəticəsini tapmaqdadır. O cümlədən, ölkənin süquta uğradığı bir vaxtda oranı tələm-tələsik tərk edənlərin bir çoxunun, ümumiyyətlə, geri dönməyəcəkləri barədə informasiyalar təsdiqini tapmaqdadır.***

Xüsusilə, rəsmi rəqəmlərin açıqlanması özü-özlüyündə işğalçı ölkənin aşkar durumunu göz önünə gətirir. Belə ki, cari ildə də Ermənistanın əhalisinin sayı kifayət qədər azalıb. “Siyahıyaalma uçotunun göstəricisinə görə, 2011-ci illə müqayisədə 2017-ci il 1 iyul tarixində, əhalinin sayı rəsmi olaraq, 2 milyon 979,9 min nəfərə qədər azalıb”. SİA xəbər verir ki, Ermənistanın milli statistika xidmətinin rəsmi məlumatını “Novosti-Armeniya” saytı yayıb.

### Şəhər və kəndlərdə, demək olar ki, adam qalmayıb

Məlumatda bildirilir ki, əhalinin sayı 1 iyul 2017-ci ildə 2016-cı illə müqayisədə 15,2 min nəfər azalıb. 1 yanvar 2017-ci ilin 1 yanvar tarixi ilə müqayisədə isə, 6,2 min nəfər azalma müşahidə olunub. Adıçəkilən xidmətin digər məlumatına görə, Ermənistanın şəhər əhalisinin sayı iyunun sonuna 1898 nəfər təşkil edib ki, burada da, 7,7 min nəfərin azalması göstərilir. Belə ki, Yerevan əhalisinin sayı 1 milyon 075,1 min nəfərdir.

Kənd yerində isə əhalinin sayı isə 7,5 min nəfərdən 1081,9 nəfərə qədər enib. Eləcə də, 2017-ci ilin yanvar-iyun ayı müddətində, respublikada doğulan uşaqların sayı 6,6%-dən 17169 nəfərə qədər enib. Ölüm halları isə ötən müddət ərzində 2,1 % artaraq, 14 709 nəfər təşkil edib. Beləliklə, bildirilir ki, 1 yanvar 2016-cı il hesablamalarına görə, 70-ci illərdən bu yana Ermənistanın əhalisinin sayı 3 milyondan azdır.

### Suriyada müharibə gedən ərazilərdə yaşamaq, istər Ermənistanda, istərsə də “DQR”-də yaşamaqdan daha rahatdır

Onu da qeyd edək ki, bu gün Qarabağdakı ərazilərimizin 20 faizini işğal altında saxlayan Ermənistan, yaratdığı problemləri üzündən, bütün sahələrdə süquta uğramaqla yanaşı, “DQR”-dəki insanları da orada saxlaya bilmir. Belə ki, Suriyadan köçürülmüş ailələr, artıq oradakı dözümsüzlük və həyat şəraitinin mürəkkəbliyi üzündən yenidən doğulduqları ərəb ölkəsinə geri dönürlər. Hətta bildirirlər ki, Suriyada müharibə gedən ərazilərdə yaşamaq, istər Ermənistanda, istərsə də “DQR”-də yaşamaqdan daha rahatdır.

Beləliklə, Ermənistanın mövcud vəziyyəti, təcavüzkar siyasətinin bariz nəticələrini ortaya qoyur və belə davam edərsə, nə Ermənistanda, nə də “DQR”-də, ümumiyyətlə, insanların yaşaması mümkün olmayacaq. Hər halda, statistikialar belə qənaətə gəlməyə zəmin yaradır.

**Rövşən NURƏDDİNOĞLU**

# Ermənilərin riyakar oyunları artıq heç bir effekt vermir

## Təcavüzkar Ermənistanın təxribatları və seçki şouları beynəlxalq dəstəkdən məhrum olub



***Ermənistan, hər zaman olduğu kimi, işğal etdiyi Azərbaycan torpaqlarını azad etməkdən yayınır və müxtəlif təxribatlarla münaqişənin həllini uzadır. Mütəmadi olaraq, baş verən silahlı təxribatlarla yanaşı, təcavüzkar ölkə həmin ərazilərdə müxtəlif vaxtlarda seçki şouları təşkil edərək, bu əməllərinə siyasi don geyindirməyə çalışır. Lakin əvvəlki illərdən fərqli olaraq ermənilərin riyakar oyunları artıq heç bir effekt vermir.***

Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan sonuncu iclasında, iyulun 19-da qondarma “DQR”də keçirilən “prezident seçkiləri”ni nəzərdə tutaraq, haqlı olaraq vurğuladı ki, Ermənistan işğal etdiyi ərazilərdə qondarma seçkilər keçirməklə, beynəlxalq aləmdə özünü rüsvay edir. Ermənilərin seçki şousuna sərgilənən beynəlxalq münasibət göstərdi ki, Azərbaycan rəhbəri fikirlərində tamamilə haqlıdır. “Seçki” ilə bağlı səsləndirilən azsaylı bəyanatların məzmunu Ermənistanın özünü bir daha rəzil vəziyyətə saldığını nümayiş etdirdi. Ümumiyyətlə, müəyyən məqamlarda bəzən ikili standartlara söykənən münasibətlərin şahidi olsaq da, son illərdə Ermənistanın beynəlxalq aləmdə təklənməsi və qınanması prosesinin sürətləndiyi müşahidə olunur. Ötən ilin aprel ayında baş verən “dördgünlük müharibə”dən sonra bu tendensiya daha da güclənməkdədir. Məhz həmin hadisələrin dünya ictimaiyyətində doğurduğu əks-səda Ermənistanın iç üzünün açılmasının, işğalçı simasının ifşa olunmasının bariz nümunəsi idi. İyulun 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Füzulinin Alxanlı kəndində dinc sakinlərin qətlə yetirilməsi, iki yaşlı körpənin vəhşicəsinə öldürülməsi ermənilərin iç üzlərini bütün dünyada nümayiş etdirdi. Onun ardınca isə, keçirilən “prezident seçkiləri”nə sərgilənən reaksiyalar bu münasibətin növbəti təzahürü idi. Ermənistanın təcavüzkar xislətinin ifşa olunmasında və beynəlxalq aləmdə qınanmasında Azərbaycanın apardığı hücum taktikasının və diplomatik fəaliyyətinin də mühüm təsiri danılmazdır. Azərbaycan dövlətinin və ictimaiyyətinin vahid qüvvə kimi planlı fəaliyyəti, nəhayət, 26 illik münaqişədə ermənilərin yaratdığı “əzilən xalq” yalanını ifşa edə bildi. İndi, hətta hər zaman ermənilərin dəstəkçisi kimi tanınanlar belə, onların yalanlarını müdafiə etməyə səbəb tapa bilmirlər.

“Prezident seçki”si də dünya ictimaiyyəti tərəfindən təxribat və münaqişənin sülh yolu ilə həllinə mane olan faktor kimi qiymətləndirilib. Bəzi böyük dövlətlər hadisəyə rəsmi münasibətlərini bildirən bəyanatlarla çıxış ediblər və faktı birmənalı olaraq pisləyiblər. Bu baxımdan, ATƏT-in Minsk Qrupunun həmsədrlərindən olan Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinin bəyanatı özünün siyasi əhəmiyyətinə görə diqqətəlayiqdir: “ABŞ Dağlıq Qarabağda keçirilən qondarma prezident seçkilərin nəticələrini tanımır”. ABŞ bir daha Dağlıq Qarabağı müstəqil və suveren dövlət kimi tanımadığını, bu “seçkilərin” Dağlıq Qarabağın hüquqi statusuna təsir etməyəcəyini və qondarma seçkilərin münaqişənin həllinə təsir etməyəcəyini xüsusi vurğulayıb. Əlbəttə, bu bəyanatın mahiyyətində ABŞ-Azərbaycan əlaqələrinin son dövrlərdə daha da strateji xarakter alması da özünün göstərir.

Azərbaycanın beynəlxalq aləmdə Ermənistanı sıxışdırması və onun təcavüzkar simasını ifşa etməsi erməniləri ciddi narahat edir. Bütün bunlar Ermənistanın küncə sıxışdırıldığının və təzyiqlərə tab gətirə bilməyəcəyinin bariz təzahürüdür.

***“Səs” Analitik Qrupu***

## Britaniyanın maliyyə naziri: “Brexit”dən sonra vergilərin azalması gözlənilmir

“Brexit”dən sonra Birləşmiş Krallıqda vergilərin azalması gözlənilmir. Bu fikirləri Britaniyanın maliyyə naziri Fillip Hammond Fransanın “Le Monde” qəzetinə müsahibəsində deyib.



Onun sözlərinə görə, Britaniya Avropa İttifaqına daxil olarkən iqtisadiyyatın faiz göstəriciləri ilə əlaqədar ölkədə vergilər artırılmışdı. Həmçinin ölkədə iqtisadiyyat müqayisə edilərək vergilər Avropa standartlarına uyğun təyin olunmuşdu. Britaniya hökuməti bu sistemi dəyişmək niyyətində deyil. Nazir vurğulayıb ki, Britaniya Aİ-ni tamamilə tərk etmiş olsa belə, rəqabət mühitinin qorunması, iqtisadiyyatda və sosial həyatda Aİ standartlarının saxlanılması planlaşdırılır.

# Avqustda respublikanın bəzi bölgələrində havanın hərarəti 43 dərəcəyədək yüksələcək

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi məlumata görə, avqustda havanın orta aylıq temperaturunun iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər yüksək olacağı gözlənilir.***

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə az olacağı ehtimalı var. Departamentdən AZƏRTAC-a bildirilib ki, Bakıda və Abşeron yarımadasında havanın orta aylıq temperaturunun 26-29° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 22-27°, gündüzlər 31-36°, bəzi günlərdə isə 38-40° isti təşkil edəcəyi ehtimalı var. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə az (norma 6-8 mm) olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında havanın orta aylıq temperaturunun 27-30° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 20-25°, gündüzlər 33-38°, bəzi günlərdə isə 40-43° isti təşkil edəcəyi ehtimalı var. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə az (norma 6-10 mm) olacağı gözlənilir.




Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən və Gədəbəy rayonlarında havanın orta aylıq temperaturunun 20-24° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 15-20°, gündüzlər 22-27°, bəzi günlərdə isə 30-33° isti təşkil edəcəyi ehtimalı var. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə az (norma 32-55 mm) olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında havanın orta aylıq temperaturunun 25-29° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 20-25°, gündüzlər 31-36°, bəzi günlərdə isə 38-40° dərəcə isti təşkil edəcəyi ehtimalı var. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə az (norma 15-20 mm) olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Xızı, Siyəzən, Şabran, Quba, Qusar, Xaçmaz rayonlarında havanın orta aylıq temperaturunun 25-28° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 19-24°, gündüzlər 28-33°, bəzi günlərdə isə 36-38° isti təşkil edəcəyi ehtimalı var. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə az (norma 13-116 mm) olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında havanın orta aylıq temperaturunun 27-30° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 22-27°, gündüzlər 32-37°, bəzi günlərdə isə 39-42° isti təşkil edəcəyi ehtimalı var. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə az (norma 6-22 mm) olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında havanın orta aylıq temperaturunun 24-27° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 20-25°, gündüzlər 30-35°, bəzi günlərdə isə 38° isti təşkil edəcəyi ehtimalı var. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə az (norma 13-83 mm) olacağı gözlənilir.

TƏRS BAXIŞ

# Əli Kərimlinin iflasının məntiqi nəticəsi

*AXCP sədri və sosial şəbəkədəki zombi dəstələri onun süqutunu sürətləndirir*

***Dəfələrlə sübuta yetirilib ki, ölkəmizin siyasi arenasında çabalayan və dağıdıcılıq, radikalizm ənənəsinə sahib olan müxalifət düşərgəsinin "liderləri" gündəmdən silinməmək üçün əllərinə düşən hər fürsətdən istifadə edirlər. Lakin həmin fürsətlərdən sağlam düşüncə və normal siyasi baxışla deyil, tamamilə əks-istiqamətdə yararlanan "liderlər"in bu məsələdə də uğursuzluqları göz önündədir.***

Xüsusilə, bənzər maneranın AXCP sədri Əli Kərimli tərəfindən sərgilənməsi, nəticə etibarilə uğursuz qalır ki, bundan aqressivləşən cəbhəçi sədr öz hirsini sosial şəbəkədəki zombiləri vasitəsilə üzə çıxarır. Ümumiyyətlə, bu fərdin əsas hədəfi yalnız hakimiyyət deyil, həmçinin, düşərgədə onu üstələyə biləcək digər müxalifət təmsilçiləridir. Bu baxımdan, Kərimlinin "facebook" muzdluları çoxsaylı saxta profilləri ilə həqarət, söyüş və küfrlərlə AXCP sədrini gündəmdə saxlamaqla məşğuldurlar.

Qeyd edək ki, artıq Ə.Kərimlinin bu cür oyunbazlıqlarına qarşı onunla bir partiyada təmsil olunan adamlar tərəfindən də qınaqlar səslənir. Artıq belə demək olar ki, Kərimli bu fəaliyyəti ilə bir sıra "yurd"çuların da etimadını itirib. Daha dəqiq desək, cəbhəçilərin kuluarlarında bu məsələ geniş müzakirə olunur. Etibarlı mənbədən sızan xəbərə görə, onlar belə deyirlər ki, sabah AXCP sıralarından çıxarlarsa, eyni addımlar özlərinə qarşı da atılacaq.



Məsələn, vaxtilə Ə.Kərimlinin yanında olan, bu partiyada canlarını qoyan, ancaq sonradan nə qədər yanlış yolda olduqlarını anlayaraq, oradan uzaqlaşan sabiq "yurd"çular da bənzər halı yaşayıblar.

## Alternativ AXCP-nin funksioneri: "Tənqid olsa, başadüşüləndir, ancaq bunlar şəxslərin ailə üzvlərinə kimi hamını şərləyib, təhqir edirdilər"

Belə ki, Ə.Kərimlinin sabiq müavini olmuş, sonradan bu və bu kimi digər məsələlərə görə partiyadan çıxmış Razi Nurullayevin yaratdığı alternativ AXCP-nin mətbuat xidmətinin rəhbəri Vüsal Qarayevə görə, Ə.Kərimlinin bu yolu seçməsinin səbəblərindən biri onu eqosudur:

"Tənqid olsa, başadüşüləndir, ancaq bunlar şəxslərin ailə üzvlərinə kimi hamını şərləyib, təhqir edirdilər. Mən bunun səbəbini iki məsələdə görürəm. Birincisi, eqo savaşı. İllərdir eyni postda, eyni partiyada öz hegemonluğunu quran şəxslərin yeni liderlərə və siyasətçilərə qısqanclığıdır. Təsəvvür edin, iqtidarı hakimiyyətini "qeyri-demokratik yollarla əlində saxlamaqda" ittiham edənlər, özləri də eyni yolu seçib, illərdir sədrliyi kiməsə vermək istəmirlər".

Alternativ cəbhəçiyə görə, Kərimli və onun zombi dəstəsi gizli səsvermə belə keçirməyə cəsarət etmir: "Biz qurultayda gizli səsvermə keçirdik, eyni zamanda, eyni şəxsin iki dəfədən artıq sədr seçilməsinə qadağa qoyduq. Digər bir səbəb də müxalifəti içindən parçalayan idarəetmə siyasətidir. Mən əminliklə deyirəm ki, bizi söyən, bizə hücum edən "müxalifət", əslində, ayrı-ayrı qruplara xidmət edir. Ölkədə müzakirə ediləcək problemlər olduğu halda, özünü müxalifət adlandıranlar niyə bu problemləri sadalayıb, həlli yollarını göstərmək əvəzinə, başqalarına hücum etsinlər, niyə təhqir edib, şərləsinlər? Qısası, bunlar qaragüruh ordusudur".

Əlbəttə, belə müxalifəti xalq da dəstəkləməz. Çünki bu gün xalqın siyasi müxalifətə dəstək verməməsi, bilavasitə, Ə.Kərimlinin, eyni zamanda, onun kimi siyasət aparan digər dağıdıcı müxalifət "liderlərinin" apardıqları bölücülük siyasətinin məntiqi nəticəsidir.

**Rövşən RƏSULOV**

# Müxalifət liderləri itirə-itirə gedirlər

*Niyaməddin Orduxanlı: "2018-ci ildə keçiriləcək prezident seçkilərində də müxalifəti acı məğlubiyyət gözləyir"*

***- Müxalifətin bir qədər fəallaşması görüntüsü yaradılır. Bu fəallıq hansı xarici tapşırığın nəticəsi ola bilər?***

- Düşünmürəm ki, müxalifət düşərgəsində fəaliyyət göstərən qüvvələrin fəallaşması müşahidə edilsin. Bu fəallaşma, yalnız sosial şəbəkədə ola bilər. Hazırda radikal müxalifət, yalnız sosial şəbəkəyə köklənib. Yəni sosial şəbəkələrdə olan özlərinin saxta profilləri bir-birinə göstərdikləri dəstəkdən o tərəfə keçmir. Çünki ilk öncə, müxalifətin xalq tərəfindən hər hansı bir siyasi dəstəyi yoxdur ki, onlar özləri üçün nə isə edə bilsinlər. Düzdür, müxalifət təmsilçiləri gündəmə qalmaq və diqqət mərkəzinə çevrilmək üçün yersiz hərəkətlərə əl atırlar. Amma onlarda bu da çox çəkmir.

***- Hər seçkiərəfəsi müxalifətə xarici qüvvələr tərəfindən böyük məbləğdə vəsaitlər ayrılır. Bu vəsaitlərin ayrılması "Siyasi partiyalar haqqında" qanunun tələblərinə zidd deyilmi?***

- Müxalifət partiyalarının xaricdən maliyyələşməsi, birbaşa "Siyasi partiyalar haqqında" qanunun tələbləri ilə ziddiyyət təşkil edir. Azərbaycan dövlətinin milli maraqlarını sevməyən beynəlxalq təşkilatlar, xüsusilə də, erməni diasporunun maliyyə dəstəyi ilə fəaliyyət göstərən, yeni erməni lobbiçilərinin maliyyələşdirdiyi beynəlxalq qurumların ölkə müxalifətinə ayırdığı maliyyə vəsaiti bir faktdır. Yəni heç də təsadüfi deyil ki, AXCP sədri olan Əli Kərimlinin müavininin, bildiyiniz kimi, bir il altı az ərzində 42 dəfə Gürcüstana etdiyi səfər çərçivəsində xeyli maliyyə vəsaitini banklardan çıxarmaq faktları var. Hüquq-mühafizə orqanları bu faktları cəmiyyətə açıqlayıb.



Müsahibimiz BAXCP sədrinin müavini Niyaməddin Orduxanlıdır

***- Sizcə, xarici qüvvələrlə müxalifətin əməkdaşlığı hansı maraqlar üzərində qurulub?***

- Ölkədə keçirilən bütün seçkilər ərəfəsində Azərbaycanı istəməyən həmin xarici qüvvələr müxalifətə maliyyə yardımları ayırırlar. Bu maliyyə yardımlarının əvəzində isə, müxalifət düşərgəsini təmsil edən şəxslər həmin xarici qüvvələrin tapşırıqlarını icra edirlər. Yəni ə.kərimlilərdən, c.həsənlilərdən, r.ibrahimbəyovlardan, e.namazovlardan sui-istifadə edilər. Bir sözlə, xarici qüvvələr bu cür müxalifətçilərdən istifadə edərək, özlərinin məkrli niyyətlərini həyata keçirirlər. Amma onların istəkləri heç vaxt reallaşmayacaq. Ümumiyyətlə, 2018-ci ildə keçiriləcək prezident seçkilərində müxalifəti acı məğlubiyyət gözləyir. Demək olar ki, Əli Kərimli bütün seçkilərdə seçkiyə bir layihə kimi baxıb və bu layihədən özünün maddi maraqlarının təmin olunmasına çalışıb. Bu cür strategiya seçən müxalifət məhvə məhkumdur.

**GÜLYANƏ**

# Leyla və Arif Yunuslar doymuş məxluqa çevriliblər

*Cütlüyün Praqada mənzilləri, İstanbulda isə obyektləri üzə çıxıb*



Günümüzün reallığında təkzib edilməsi qeyri-mümkün olan fakt ondan ibarətdir ki, müxalifət düşərgəsində təmsil olunan partiyaların, eləcə də, siyasiləşmiş QHT-lərin böyük əksəriyyəti xarici fondlar və ya maraqlı dairələr tərəfindən maliyyələşirlər. Bu fakt dəfələrlə məhkəmələr, həmçinin araşdırmaçı jurnalistlər tərəfindən üzə çıxarılaraq cəmiyyətə çatdırılıb. Düzdür, Azərbaycan cəmiyyəti bu cür məlumatlara malikdir. Hər kəs çox gözəl bilir ki, müxalif qüvvələr xarici fondlar tərəfindən maddi və mənəvi dəstək əldə edirlər. Məhz bu və ya digər amillər səbəbindən, Azərbaycan ictimaiyyəti dağıdıcı müxalifəti qətiyyətlə rədd edir. Hətta cəmiyyətin ayrı-ayrı təbəqələri xarici qüvvələrlə iş birliyi quran müxalifətin məsuliyyətə cəlb olunması üçün hüquq-mühafizə orqanlarına müraciətlər edirlər. Dövlət qeydiyyatlarının ləğv edilməsi çağırışları da ara-sıra səslənməkdədir. Bu cür ictimai mənfi münasibətə baxmayaraq, görünən odur ki, müxalifət öz əməkdaşlıq münasibətlərini nəinki dayandırır, əksinə, bir qədər də onu inkişaf etdirirlər. Xüsusilə də Maliyyə Nazirliyi vəsaitlərin nağdlaşdırılması barədə qərar qəbul etdikdən və Ədliyyə Nazirliyi qrantların uçotunun aparılması haqqında müvafiq qərarından sonra xaricdən maliyyələşən müxalif partiyalar fəaliyyətlərini qonşu ölkələrdə bank hesabları açmaqla davam etdirirlər. Misal kimi bu gün AXCP-nin sədr müavini Gözəl Bayramlının külli miqdarda maliyyə vəsaitini Gürcüstandan Azərbaycana keçirən zaman həbs olunmasını göstərmək olar. Eyni zamanda, müsavatçı Əfqan Muxtarlının da Tbilisidən bankdan götürdüyü 10.000 avronu qaçaqmalçılıq yolu ilə Azərbaycana keçirən zaman sərhədçilərimiz tərəfindən saxlanılması misallar seriyasında növbəti misal ola bilər.

***Müxalifət maliyyə imkanlarını siyasiləşmiş QHT-lər vasitəsilə həyata keçirir***

AXCP və Müvasat kimi partiyalar xaricdən əldə olunan maliyyə vəsaitini təsirləri altında olan QHT-lər vasitəsilə həyata keçirməyə daha çox meyil göstərirlər. AXCP sədri Əli Kərimlinin iş birliyində olduğu "Sülh və Demokratiya İnstitutu"nun rəhbəri Leyla Yunusun külli miqdarda vəsaiti xaricdən əldə etdikdən sonra siyasi partiyalara ötürməsi dəfələrlə mətbuata müzakirə mövzularından olub. Söz yox ki, L.Yunus müxalif partiyalarla yanaşı, özünə də geniş imkanlar yaradır, amma qanunun tələblərini pozmaqla.

Leyla və Arif Yunuslar xaricə qaçdıqdan sonra orada da Azərbaycan əleyhinə geniş iş aparırlar. Xarici qüvvələrin təlimatına əsasən, dövlətimiz və xalqımız əleyhinə şərböhtan səsləndirir, ittihamlar irəli sürürlər. Məlumatlara görə, bu cür hədyanların qarşılığında sözügedən cütlük maliyyə yardımları alırlar. Məhz bu maliyyə dəstəyi hesabına Leyla və Arif Yunuslar Almaniya, Hollandiya, Çexiya və Türkiyədə özlərinə mülklər və obyektlər alıblar. Praqada Bechlilinska 705/4 Praqa-9 ünvanında mənzil alan cütlük İstanbulda 400 kvmetr olan ticarət obyektinə sahibdirlər. Həmçinin, bu şəxslərin Berlində də mülkləri olduğu bildirilir.

Qeyd edək ki, Leyla və Arif Yunuslar haqqında Azərbaycan Baş Prokurorluğu tərəfindən cinayət işi qaldırılıb. Məhkəmə bu şəxslərin məcburi qaydada məhkəməyə gətirilməsi barədə qərar qəbul edib. "İnterpol" tərəfindən axtarışda olan bu şəxslərin yaxın vaxtlarda həbs edilərək, Azərbaycana gətiriləcəyi şübhəsizdir. Çünki bu şəxslər vergi və maliyyə qaydalarını tamamilə pozublar. Üç il ərzində, ümumilikdə 2 milyon 500 min avro qrant alıblar ki, bu vəsaitlər maliyyə uçotuna alınmayıb. Vergi və maliyyə, eləcə də, Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının apardıqları birgə araşdırma zamanı məlum olub ki, Leyla və Arif Yunusların xaricdən aldıqları qrantlar heç bir halda uçota alınmayıb, ciddi maliyyə pozuntularına yol verilib, vergidən yayınma halları törədilib. Məhz bu və digər amillər Leyla və Arif Yunusların cinayət məsuliyyətinə cəlb edilmələrinə əsas verir. Nə qədər qaçıb gizlənsələr də, nəyahətdə onların ədalət məhkəməsi qarşısında otuzdurulacaqları şübhəsizdir.

**İ.ƏLİYEV**

# Azərbaycan mədəniyyəti və etnik mənsubiyyət

***Mədəniyyətlərin, sivilizasiyaların, dövlətlərin, siyasi birliklərin, cəmiyyətlərin yaranmasının əsasında, məhz etnoslar durur. Etnik mənsubiyyətə malik olaraq, yaşamaq insan təbiətindən irəli gələn tələbatlardan doğmuş və tarix boyu insanın şüurunda və düşüncələrində inkişaf etmişdir. İnsan həyatında həlledici rol oynayan faktor kimi müvafiq münasibət tərzi formalaşdırmaq cəhdi edilmişdir. Hal-hazırda da bu faktor ümumbəşəri münasibətlərdə qlobal səviyyədə əhəmiyyət kəsb etməyə başlamışdır. İnsanlar öz mövcudluqlarını nümayəndəsi olduqları etnosun mövcudluğu ilə eyniləşdirərək, (yəni milli özünüidentifikasiya) özlərinə bütöv bəşəriyyət daxilində məna kəsb edən yer tapmışlar. Bəziləri isə, hələ də bu yeri axtarmaqdadırlar.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

Onu da qeyd edək ki, etnik birliklərin formalaşmasına təsir edən əsas faktorlar sırasına konsolidasiya və assimilyasiya daxildir. Bu proseslər mahiyyəti etibarilə fərqlənirlər. Konsolidasiya anlayışını işlədərkən, adətən, bir çox qohum tayfaların, etnik qrupların bir xalq halında cəmləşməsi və formalaşmış bir xalqın tərkib hissələrinin etnik cəmləşməyə yönəlməsi və bu toplum ilə də sosial-iqtisadi, mədəni inkişafı doğurması başa düşülür. Konsolidasiya prosesi millətlərin yaranmasının əsasında durur. Konsolidasiya proseslərinin inkişafına siyasi faktorlar böyük təsir göstərir. Assimilyasiya prosesi isə bir etnosun digərinə təsir edərək, onu öz içərisində əridib tədricən bir etnik birlik kimi varlığına son qoyması ilə müşahidə olunur. Assimilyasiya iki cür olur:

1. Zor tətbiq etməklə;
2. Zor tətbiq etmədən, tədricən inkişaf etmiş böyük bir etnosun digərini (daha kiçik olanı və ya hər hansı etnosa məxsus etnoqrafik qrupu) özündə əritməsi ilə müşahidə olunur.

Dünyanın etnik tərkibi daimi baş verən etnik proseslər səbəbindən, dəyişikliyə məruz qalır. Bu və ya digər ölkənin etnik tərkibi müəyyənləşdirilərkən, əsas həlledici məsələ tək, ümumilikdə, əhalinin və onun tərkibindəki qrupların hansı tip birliyə məxsus olmasını müəyyənləşdirməyə yönələn məsələlər öndə durur. Yer kürəsini əhatə edən xalqları tam bir siyahıya gətirmək çox çətindir. Əgər bu və ya digər formalaşmış xalqa, millətə diqqətlə etnosferada yer ayırmaq mümkün olursa, har-hazırda da, əsasən, Afrikada və Asiyada ayrı-ayrı dövlətlərin, ölkələrin sərhədləri daxilində yerləşmiş tayfaların, tayfa qruplarının bir çoxunu dəqiqliklə bu və ya digər etnosa aid etməkdə problemlər yaranır. Misal üçün, rus etnoqraflarının hazırladığı "Dünya xalqlarının Yer üzərində yerləşməsi və sayı" kimi tərcümə edə biləcəyimiz oçerklər məcmusunda qeyd edilmişdir ki, "Vyetnamda müxtəlif dillərdə danışan 70-ə yaxın xalq vardır. Ancaq ki, daxildə konsolidasiya prosesləri getməkdədir ki, dil yaxınlığına malik Tan qrupuna məxsus 20-yə yaxın tayfanın da artıq formalaşan xalq kimi (etnos-V.Ö.) qəbul edilməsi mümkündür. Digər tərəfdən isə, Malay dillərində danışan tayfalar (dağ çamları və ya Tyamları adlanan tayfalar) bir-birinə yaxınlaşmaqdadırlar".

Adını çəkdiyimiz kitabda dünya xalqları müəyyən meyarlara uyğun qruplaşdırılaraq, onların təsnifatı aparılmışdır ki, biz də təsnifata əsasən, tərtib olunmuş siyahını verəcəyik. Ancaq öncə xalqların təsnifat edilməsində istifadə edilən meyarlarla ümumi şəkildə tanış olaq. Qeyd edək ki, xalqların qruplaşdırılması üçün müxtəlif təsnifat sistemləri tətbiq edilir: mədəni-təsərrüfat tiplərinə, tarixi-etnoqrafik dairələrə və s. görə təsnifatlar. Etnik birliklərin əsas elementi dil olduğundan, elmi münasibət baxımından, dəyərli və daha çox yayılmış olan təsmnifat xalqların dil mənsubluğuna görə təsnifatıdır. Avropa etnoqrafiyasındakı dünyanın etnoqrafik xəritəsində təsnifat irqi qohumluğu və eyni zamanda, dil yaxınlığına görə də aparılmışdır. Antropoloji və linqvletik təsnifatın qarışdırılması metodoloji yanaşma baxımından səhv ola bilər. Bu cür xəritələrdə bəzən bütöv bir xalqın, həqiqətən də, daha çox mənsub olduğu irqə aid edilməməsi faktı özünü göstərmişdir. Oksford İqtisadi Atlasında verilən xalqların xəritəsində Ural və Altay dil ailələri, bütövlükdə monqoloid irqinə aid edilmişdir.

Dil mənsubiyyəti üzrə təsnifatın əsası kimi dillərin qohumluq dərəcələri üzrə genealoji təsnifatı götürülür. Genealoji təsnifatın əsasında keçmişdə mövcud olan ümumi dil - əsas dildən irəli gələn və dilləri birləşdirən dil ailələri anlayışı durur. Ailələr qruplara və altqruplara bölünür. Onun ayrılmış hər bir aşağı pilləsi ümumi ilə müqayisədə daha yaxın dilləri birləşdirir. Həmçinin, dil qrupları da var ki, hal-hazırda genealoji təsnif edilməsi mümkün deyildir. Bir çox hallarda bu, onların az öyrənilməsi ilə bağlıdır.

Dil ailələrinin formalaşması prosesi insanların Yer kürəsi boyu yayılması ilə sıx bağlıdır. Miladi erasını əhatələyən dövrü belə götürsək, bu dövrdə də böyük dəyişiklikləri görmək mümkündür. VII əsrə kimi yalnız ərəb yarımadasına yayılan ərəb dili hal-hazırda Yer kürəsinin quru hissəsinin 10% əhatə edən nəhəng ərazi boyu yayılmışdır. XV əsrə kimi Britaniya adasında hakim olan ingilis dili hal-hazırda bu kontinentin bir sıra yerlərində əsas dil olmuşdur. Braziliya istisna olmaqla bütün Latın Amerikasına isə ispan dili yayılmışdır.

Azərbaycan xalqı dil mənsubiyyəti təsnifatına görə, türk dillərinin Oğuz qrupuna aiddir. Bu gün Azərbaycanda müxtəlif xalqların, etnik qrupların mədəniyyətləri, dilləri, adət-ənənələri bir-birinə qovuşmuş, Azərbaycan milli mədəniyyəti etnik mənsubiyyətindən asılı olmayaraq, bütün xalqların mədəniyyəti olduğu kimi, Azərbaycan dövlət dili də bütün xalqların və etnik qrupların ünsiyyət vasitəsidir.



Bu gün Azərbaycanda müxtəlif xalqların, etnik qrupların mədəniyyətləri, dilləri, adət-ənənələri bir-birinə qovuşmuş, Azərbaycan milli mədəniyyəti etnik mənsubiyyətindən asılı olmayaraq, bütün xalqların mədəniyyəti olduğu kimi, Azərbaycan dövlət dili də bütün xalqların və etnik qrupların ünsiyyət vasitəsidir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs
Son səhifə 1 avqust

## Avtovertolyot 500 min dollara satılacaq



Amerikalı mühəndis Robert Dinqannesin layihəsi ilə hazırlanan "PAL-V" avtomobili şose ilə hərəkət etməklə yanaşı, lazım gələrsə göyə də qalxa bilir. AZƏRTAC "novate.ru" saytına istinadla bildirir ki, belə bir aparatın yaradılması üçün bir neçə il gərgin işləmək lazım gəlib. Nəqliyyat vasitəsi yalnız 1 nəfərə hesablanıb. Havaya qalxacağı təqdirdə maşın vertolyota çevrilir və maksimim süreti saatda 160 kilometrə çatır. Həmçinin 1300 kilometrə qədər məsafə qət edən avtomobil 100 kilometrə 7,6 litr yanacaq işlədir. Gələn ildən kütləvi istehsala buraxılacaq avtovertolyotun təqribi qiyməti 500 min ABŞ dollaradır.

## Balıq yağı orqanizmdə serotonin hormonunun artmasına səbəb olur



Balıq yağı orqanizmdə kalsium və fosforun miqdarını tənzimləyir, vitamin mübadiləsini yaxşılaşdırır. Xüsusi iyə malik, şəffaf-sarı rəngdə olan bu yağın tərkibində 350-1000 ME A vitamini mövcuddur.

AZƏRTAC "Zdorovye i meditsina" saytına istinadla xəbər verir ki, balıq yağının tərkibi böyük miqdarda müxtəlif növ vitaminləri və ən əsası omega-3 doymamış yağ turşuları ilə zəngindir. Yağın tərkibindəki A vitamini selikli qişa hüceyrələrini və dərinin bərpasını təmin edir, dəqiq rəng seçimi və torlanmanın qarşısının alınması baxımından görmə piqmentlərinin formalaşmasına müsbət təsir göstərir. Bu vitaminin orqanizmdə çatışmazlığı dərinin quruluğuna, dırnaqların və saçların zəifləməsinə səbəb olur.

Orqanizmin hüceyrələrinə fosfor və kalsiumun nüfuz etməsində D vitamininin çox böyük rolu var. Bu vitaminin uşaq orqanizminə lazımi qədər daxil olmasına xüsusi diqqət yetirmək lazımdır. Belə ki, uşaq yaşlarda yaranan raxit xəstəliyinin səbəbi məhz orqanizmdə kalsium və fosfor mübadiləsinin pozulmasıdır. D vitamini, eyni zamanda, sinir sisteminin sakitləşməsində, ayaqlarda yaranan qıcolmaların qarşısının alınmasında, orqanizmin böyüməsində, sümüklərin və dişlərin möhkəmlənməsində əsas rol oynayır.

Balıq yağının tərkibində çoxlu miqdarda mövcud omega-3 doymamış yağ turşuları orqanizm tərəfindən iltihab əleyhinə maddə kimi qəbul olunur. Bundan əlavə, omega-3 ürək əzələlərini qidalandıran əsas damarların genişlənməsinə kömək edir, trombun yaranma riskinin qarşısını alır.

Son araşdırmalara əsasən bəlli olub ki, balıq yağı orqanizmdə serotonin hormonunun artmasına səbəb olur. Serotonin depressiyalarla mübarizədə kömək edir, stress hormonları, qıcıqlanma, yaşla əlaqədar əqli zəiflik və yaddaş pozuntularının əmələ gəlməsinin qarşısını alır. Balıq yağı adətən 15 millilitr olmaqla gündə üç dəfə qəbul edilir.

## "Fənərbaxça"nın sabiq futbolçusu "Beşiktaş"da

Türkiyənin "Beşiktaş" klubu heyətinə yeni oyunçu cəlb edir. Qol.az-ın "Fanatik"ə istinadən yaydığı xəbərə görə, İstanbul təmsilçisi hollandiyalı futbolçu Cermen Lenslə razılığa gəlib. "Sanderlend"in hücumçusunun bu həftdə İstanbula gedərək 3 illik müqavilə imzalayacağı bildirilir. Qeyd edək ki, 29 yaşlı oyunçu ötən mövsüm icarə əsasında "Fənərbaxça"da oynayıb.

## ELAN

Məmmədova Pərvin Əlimirzamin qızına Azərbaycan Xairici İşlər Nazirliyi tərəfindən verilmiş giriş-çıxış kartı itdiyi üçün etibarsız sayılır.

## Azərbaycan cüdoçusu Almaniyada keçirilən yarışda çempion olub




Almaniyanın paytaxtı Berlin şəhərində gənc cüdoçular arasında Avropa kuboku yarışına yekun vurulub. Mötəbər yarışın sonuncu günündə Azərbaycan cüdoçuları daha 2 medal qazanıblar. AZƏRTAC xəbər verir ki, 100 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Zelim Kotsiyev bütün rəqiblərindən güclü olaraq Berlində növbəti dəfə Azərbaycan bayrağını ucaldıb. Digər təmsilçimiz Naim Hüseynov (81 kq) Avropa kubokunun bürünc medalına sahib olub. Xatırladaq ki, 37 ölkədən 513 (317 oğlan, 196 qız) idmançının qatıldığı mötəbər yarışda Azərbaycan millisi 20 cüdoçu (15 oğlan, 5 qız) ilə təmsil olunub.

## Yusuf Dikeç: Azərbaycanda keçirilən yarışlar mənə həmişə uğur gətirir



Azərbaycan mötəbər beynəlxalq yarışların yüksək səviyyədə təşkilinə görə xüsusilə fərqlənir. Bakıda keçirilən atıcılıq üzrə Avropa çempionatında bunun bir daha şahidi oldum. Bu sözləri AZƏRTAC-a müsahibəsində çempionatın kişilər arasında 25 metr məsafəyə tapança ilə mərkəzə atəşaçma yarışının qızıl medalını qazanan türkiyəli atlet Yusuf Dikeç deyib. Azərbaycandan Türkiyəyə daim xoş təəssüratlarla qayıtdıqlarını bildirən Y.Dikeç insanlarımızın çox mehriban və qonaqpərvər olduqlarını vurğulayıb. O, Bakıdakı Atıcılıq Mərkəzinin möhtəşəm olduğunu, burada idmançılar üçün hər cür şərait yaradıldığını qeyd edib.

"Ölkələrimizi çoxillik sıx dostluq telləri bağlayır, mənim Azərbaycanda çoxlu dostlarım var. Qəbələdə təşkil olunan dünya çempionatında gümüş, IV İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazanmışam. Bu gün isə qardaş ölkədə keçirilən Avropa çempionatının qızıl medalına sahib oldum. Bu medalı Bakıda qazandığım üçün özümü çox xoşbəxt hiss edirəm. Ümumiyyətlə, Azərbaycanda keçirilən yarışlar mənə həmişə uğur gətirir".

## Andrea Bruehlman: "Bakı Atıcılıq Mərkəzində idmançılar üçün mükəmməl şərait yaradılıb"



Komanda hesabında qızıl medal qazandığım üçün çox sevinirəm. Yarışlar çətin keçsə də medal qazanacağıma inanırdım. Bu sözləri Bakıda keçirilən atıcılıq üzrə Avropa çempionatının 300 metr məsafədə qadınlar arasında komanda yarışlarının qızıl mükafatçısı isveçrəli Andrea Bruehlman bildirib. O deyib: "Bakıya ilk dəfədir gəlmişəm. Bura həqiqətən də çox gözəl şəhərdir. Bakı Atıcılıq Mərkəzində idmançılar üçün mükəmməl şərait yaradılıb. Burada Avropanın ən güclü idmançıları ilə mübarizə apardığım üçün çox şadam".

## Mourinyo: "Mənim "Qalatasaray"a keçməyim daha realdı, nəinki Fellaininin"



"Qalatasaray"ın belçikalı futbolçu Maruan Fellainini istəməsinə "Mançester Yunayted"in baş məşqçisi Joze Mourinyo münasibət bildirib. Apasport.az saytının məlumatına görə, portuqaliyalı çalışdırıcı bu keçidin mümkünsüz olduğunu deyib. O, Fellaininin klub üçün çox vacib oyunçu olduğunu vurğulayıb: "Joze Mourinyonun "Qalatasaray"a keçməsi daha real variantdı, nəinki Fellaininin. Əgər baş məşqçi axtarırlarsa, bəlkə də bir şansları var, ancaq Maruan? Bunu unudun".

Qeyd edək ki, "Qalatasaray" rəsmisi Cenk Ergün Belçika millisinin üzvü ilə danışıq apardıqlarını və ilkin razılıq əldə etdiklərini demişdi.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500